www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 yanvar 2018-ci il Cümə axşamı №12 (6901) Qiyməti 60 qəpik

**Xəbər**

## Generalın sürücünü döyən oğluna 4 il 6 ay həbs cəzası verildi

yazısı səh.2-də

**Gündəm**

### ABŞ-ın terror xəbərdarlığından sonra Azərbaycan nə etməlidir...



Elxan Şahinoğlu: "Vaşinqton siyahısına ölkəmizin adını salmaqla yanlışlığa yol verib"

yazısı səh.12-də

### Prezident Administrasiyasına yeni şöbə müdiri təyin edildi

yazısı səh.2-də

### ABŞ-ın hədəfində olan 3 ölkə - onlar necə xilas oldu...

yazısı səh.6-da

### Peşə məktəblərində çalışan müəllimlərin maaşı iki dəfə artırıldı

yazısı səh.2-də

### Trampın psixoloji problemi olmadığı elan edildi, amma şübhələr çəkilmədi

yazısı səh.7-də

### "BMT baş katibinin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair çağırışını təqdir edirik" - XİN

yazısı səh.9-da

### Bakı-Sumqayıt yolunda bitməyən tıxac problemi

yazısı səh.13-də

### İqtisadiyyatın "axsayan" tərəfi: qiymətli kağızlar bazarı

yazısı səh.10-da

### Bolqarıstanın baş nazirindən şəffaflıq örnəyi

yazısı səh.7-də

### Qarabağı azad etmək fürsəti - "Belə şans həmişə ələ düşmür..."

yazısı səh.11-də

### Nazirlik azərbaycanlılara qadağa qoyan hotelləri yoxlamağa başladı

yazısı səh.13-də

## Rusiya və ABŞ-ın daha bir rəqabət meydanı

# ERMƏNİSTAN ÜÇÜN "QİY(A)MƏT GÜNÜ" - KRİTİK ANA BİR GÜN QALDI...

İşğalçı ölkədə sabah bahalaşma əleyhinə kütləvi etirazlar başlayır; Ermənistan böyük güclərin diqqətində; ABŞ səfiri Müdafiə Nazirliyinə getdi - səbəb; **amerikalı nüfuzlu analitik isə İrəvanı sanksiyalar barədə xəbərdar etdi:** "Ermənistan Rusiyanın koloniyası kimi qaldıqca..."




yazısı səh.4-də

## YAP-çı deputatın işi antikorrupsiya idarəsində

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi sabiq rektor Şəmsəddin Hacıyevin rəhbərlik etdiyi dövrü araşdırır; ittihamlar təsdiq edilərsə...

yazısı səh.3-də



*Qubad İbadoğlu:*

**"Bankların bağlanması çıxış yolu deyil"**

yazısı səh.5-də



**Pənah Hüseyndən eks-prezidentə sərt cavab: "Həqiqətləri üzə çıxarmaq istəyirlərsə..."**

yazısı səh.4-də



*Vüqar Bayramov:*

**"Neftin bahalaşması islahatların dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır"**

yazısı səh.10-da



## Prezident peşə məktəblərində çalışan müəllimlərin maaşını iki dəfə artırdı

**Azərbaycan prezidenti İlham Əliyev dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin dərs yükünün və əməkhaqlarının, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin isə əməkhaqlarının artırılması haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb.

Nazirlər Kabinetinə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış, dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşlarının sxemini və məbləğlərini on beş gün müddətində təsdiq etmək tapşırılıb.

Diaqnostik qiymətləndirmədən sonra Təhsil Nazirliyinin keçirdiyi mərkəzləşdirilmiş müsabiqə yolu ilə ilk peşə-ixtisas təhsili müəssisələrinə işə qəbul edilən, idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilər bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış işçilərə bərabər tutulacaq.

Sərəncam 2018-ci il yanvarın 1-dən tətbiq edilir.




## Prezident Administrasiyasına yeni şöbə müdiri təyin edildi

**Prezidentin Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi vəzifəsi ləğv edilib. APA-nın məlumatına görə, bu, Prezident Administrasiyasının dünən yenilənən strukturunda əksini tapıb.**

Prezident Administrasiyasının 31 may 2017-ci ildə təsdiqlənmiş yeni strukturunda Prezidentin Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi-şöbə müdiri vəzifəsi yer alıb və bu vəzifəyə indiyə qədər təyinat olmayıb.

Bu gün isə Prezidentin Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi-şöbə müdiri vəzifəsi Prezident Administrasiyasının strukturundan çıxarılıb, bu vəzifə Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri vəzifəsi kimi verilib.

Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri vəzifəsinə isə Etibar Nəcəfov təyin edilib. Azərbaycan prezidenti İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Generalın sürücünü döyən oğluna 4 il 6 ay həbs cəzası verildi





**Yanvarın 17-də avtobus sürücüsünü döyən general oğlunun son məhkəmə iclası keçirilib. Musavat.com xəbər verir ki, Bakıda xuliqanlıq hərəkəti etməkdə təqsirləndirilən Rüstəm Orucov son söz deyib və bəraət istəyib. Məhkəmə hökmü elan etmək üçün müşavirəyə çıxıb.**

Məhkəmə heyəti müşavirədən sonra hökmü elan edib. Hökmə əsasən R.Orucov 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

General oğlunun dostları P.Abbasovla K.Vəliyevin hər biri 1 il 5 ay müddətinə azadlıqdan məhrum edilib. Onlar məhkəmə zalında həbs ediliblər.

Xatırladaq ki, dövlət ittihamçısı general oğlunun 6 il, digər iki nəfərin isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Bildirək ki, general oğlu sürücünü döyən zaman Pərviz və Kənan adlı şəxslər də general oğlunun yanında olub. Onlar Orucovun dostlarıdır və hadisə zamanı onun avtomobilində olublar. Hər ikisi barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun yaydığı rəsmi məlumata əsasən, bu il iyulun 3-də R.Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatlığına səbəb olub.

O, insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib.

Məlumata görə, R.Orucov piyadanın ölümünə səbəb olan yol-nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib.

Faktla bağlı 2017-ci il 4 iyul tarixində Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.

R.Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Bu hadisədən sonra R.Orucovun atası general-mayor Novruzəli Orucov prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini vəzifəsindən azad edilib.

❑ **İlkin MURADOV**

## Azərbaycanda hər 1000 kişiyə 1006 qadın düşür

**Azərbaycanda əhalinin demoqrafik vəziyyəti açıqlanıb. Dövlət Statistika Komitəsindən "Report"a verilən məlumata görə, ilin əvvəlindən ölkə əhalisinin sayı 80731 nəfər və ya 0,8 faiz artaraq 2017-ci il dekabr ayının 1-i vəziyyətinə 9890712 nəfərə çatıb.**

Əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadrat kilometrə düşən sıxlığı 114 nəfər olub. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

## "Bitcoin"in dəyəri 10 min dollardan aşağı düşdü

**"Bitcoin"in dəyəri 10 min dollardan aşağı düşüb. "APA-Economics" xəbər verir ki, bu, "Coindesk" portalındakı rəqəmlərdə öz əksini tapıb.**

Belə ki, 2017-ci ilin noyabrından bəri ilk dəfə bu gün "Bitcoin"in qiyməti 9,707 dollara enib. Ötən ilin dekabrında isə "Bitcoin" rekord həddə - 20 min dollara qədər bahalaşıb.

Qeyd edək ki, Çin və Cənubi Koreyanın "Bitcoin"lə əməliyyatların aparılmasını məhdudlaşdırmaq və ya qadağan etmək istəyi ilə bağlı yayılan xəbərlər bu kriptovalyutanın ucuzlaşmasına səbəb olub.




## Dini ekstremizmə qarşı birgə tədbirlər planı imzalandı

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti arasında dini ekstremizmə qarşı mübarizənin 2018-ci il ərzində də davam etdirilməsi məqsədilə Tədbirlər Planı imzalanıb.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən APA-ya verilən məlumata görə, Tədbirlər Planında dini ekstremizmə və onu doğuran səbəblərə qarşı birgə mübarizənin aparılması, bu istiqamətdə fəaliyyət göstərən qurumlar arasında koordinasiya işinin təşkili məqsədilə respublikanın bütün bölgələri əhatə olunmaqla seminar-müşavirələrin keçirilməsi nəzərdə tutulub.

İctimaiyyət nümayəndələrinin də cəlb olunacağı bu tədbirlərdə Azərbaycanda mövcud dövlət-din münasibətləri, bu sahədəki təhdidlər, eləcə də dini ekstremizmin yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları, ölkədəki multikultural mühit və tolerantlıq ənənələri, müxtəlif dinlər və məzhəblər arasında əməkdaşlığa dair mövzularda geniş fikir mübadiləsinin aparılması planlaşdırılır.



## "İsa Qəmbər yanvarın 18-də evə buraxılacaq" - Aida Qəmbər

**"İsa bəyin vəziyyəti yaxşıdır. Müalicə həkimi ilə danışmışam, artıq yanvarın 18-də evə buraxılmalıdır".**

Bu sözləri Milli Strateji Düşüncə Mərkəzinin sədri, parlamentin sabiq spikeri İsa Qəmbərin həyat yoldaşı Aida Qəmbər musavat.com-a açıqlamasında bildirib.

Qeyd edək ki, Mərkəzi Klinik Xəstəxananın kardioloqu, İsa Qəmbərin həkimi Firdovsi İbrahimov APA-ya açıqlamasında bildirib ki, onun səhhəti yaxşıdır: "Danışır, yavaş-yavaş gəzməyə başlayıb. Evə nə vaxt buraxılacağı barədə isə konkret söz deyə bilməyəcəyəm".

F.İbrahimov bildirib ki, İ.Qəmbər kardioreanimasiyadan terapiya şöbəsinə köçürülüb, hələ həkim nəzarəti altında olmalıdır.

Həmçinin o qeyd edib ki, yanvarın 18-də konsillium keçiriləcək və İ.Qəmbər növbəti dəfə müayinə olunacaq.

❑ **Xalidə GƏRAY**

## Fazil Məmmədov şəxsi istifadəsindəki 4 bahalı maşını Vergilər Nazirliyinə qaytardı

**Sabiq vergilər naziri Fazil Məmmədov tabeliyində olan 4 ədəd bahalı xarici avtomobili Vergilər Nazirliyinə bağışlayıb.**

Modern.az-ın nazirlikdən əldə etdiyi məlumata görə, həmin maşınlar Fazil Məmmədovun nazirliyə rəhbərlik etdiyi dövrdə şəxsi avtomobillər kimi alınıb. Və daha sonra nazirliyin vəzifəli şəxslərinin istifadəsinə verilib. Maraqlıdır ki, qeyri-rəsmi olaraq həyata keçirilən bu proses müddətində əsasən nazir müavinlərinin istifadəsində olan həmin "Audi A 8" markalı avtomobillərə görə eks-nazirə yüksək məbləğdə icarə haqqı da ödənilirmiş. Təbii ki, həmin vəsait Vergilər Nazirliyinin büdcəsindən silinib.

Nazir müavinlərinin istifadəsində olmuş və Fazil Məmmədovun şəxsi maşınları kimi rəsmiləşdirilmiş "Audi A 8" markalı 10 AS 712, 10 AS 713, 10 AS 714 və 10 AZ 890 dövlət seriya nömrəli avtomobillər hazırda Vergilər Nazirliyinin adına sənədləşdirilir.

Nazirlikdə kadr dəyişiklikləri də davam edəcəyi bildirilir...

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

# YAP-çı deputatın işi antikorrupsiya idarəsində

## Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi sabiq rektor Şəmsəddin Hacıyevin rəhbərlik etdiyi dövrü araşdırır; ittihamlar təsdiq edilərsə...

**Yanvarın 17-də Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2017-ci il ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib.**

Mətbuat konfransında baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ictimaiyyətin maraqla izlədiyi bir məsələ haqda da danışıb. K.Əliyev jurnalistlərin suallarına cavab olaraq Hesablama Palatasının Azərbaycan Dövlət İqtisad Universitetində apardığı yoxlama materiallarına dair təhqiqatın davam etdiyini bildirib. O, istintaqın gedişi ilə bağlı əlavə məlumat verməyib.

**Qeyd edək ki, ötən ilinin oktyabr ayının 25-də də Kamran Əliyev bu mövzu ilə bağlı danışarkən bildirib ki, konkret olaraq kimlərin məsuliyyətə cəlb olunması istintaqın yekununda bilinəcək:** "Bu barədə mətbuata da məlumat verilib. İstintaqda nə qədər şəxsin dindirildiyini deyə bilmərəm. Yoxlamalar təyin etmişik. Sənədlərin götürülməsi üçün istintaq hərəkətləri davam etdirilir".

**Həmin vaxt sabiq rektorun dindirilməsi ilə bağlı mediada yayılan xəbərlərlə bağlı K.Əliyev bunları demişdi:** "Bununla bağlı bir söz deyə bilmərəm. Çünki həmin işlə bağlı dindirmələr davam edir. Konkret adı çəkilən və digər şəxslərlə bağlı məlumat verə bilmərəm".

Ş.Hacıyevin özü isə son vaxtlar bu məsələ barədə danışmır. O, yalnız bir dəfə açıqlama verərək "mən bu məsələ ilə bağlı heç bir yerə dəvət olunmamışam və niyə də dəvət olunmalıyam ki?" deyib. Mediada isə onun istintaqa çağırılıb dindirildiyi barədə iddialar var.



K.Əliyev bu dəfə də konkretləşdirməsə də, istintaqın davam etdiyini təsdiq edib. Əgər istintaq nəticəsində mənimsəmələrin sabiq rektorun dövründə baş verdiyi, Ş.Hacıyevin bu işdə məsuliyyəti olduğu təsdiqlənərsə, o halda Baş Prokurorluq təqdimatla Milli Məclisə müraciət etməlidir. Təqdimat Milli Məclisdə razılaşdırılarsa, onun mandatı ləğv olunmalıdır.

Qeyd edək ki, sentyabrın 21-də Azərbaycan Dövlət İqtisad Universitetinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb. Universitetdə dövlət büdcəsindən ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasının auditinin nəticəsinə dair Hesablama Palatasından daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

İlkin araşdırma zamanı yoxlama dövrünü əhatə edən 18 may 2012-ci ildən 1 aprel 2014-cü il tarixədək olan müddət ərzində universitetin vəzifəli və digər maddi-məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək təhsil haqlarının uçotu, yığılması və bank hesabına köçürülməsi, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotda əks etdirilməsi ilə bağlı ağır nəticələrə səbəb olan ciddi qanun pozuntularına yol verilməsi, eləcə də külli miqdarda vəsaitin uçotdan yayındırılmasına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 179.3.2-ci (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə külli miqdarda etibar edilmiş özgə əmlakını talama) maddələri ilə cinayət işi başlanıb.

**Qeyd edək ki, 179.3.2-ci maddə üzrə 7 ildən 12 ilədək, 308.2 maddə ilə isə 3 ildən 8 ilədək cəza nəzərdə tutulur.**

❑ **"YM"**

# Bu ilin buraxılış, qəbul və sınaq imtahanlarının tarixləri elan edildi

**Dövlət İmtahan Mərkəzinin (DİM) yaxın aylar ərzində keçirməsi nəzərdə tutduğu ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanlarının, magistratura və rezidenturaya qəbul imtahanlarının birinci mərhələsinin, ümumi orta (9 illik) təhsil bazasında təhsilalanların buraxılış imtahanlarının birinci mərhələsinin, sınaq imtahanlarının tarixləri müəyyən olunub.**

Bu barədə "Report"a DİM-dən bildirilib.

Belə ki, ali təhsil müəssisələrinə II və III ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanı mayın 13-də, I və IV ixtisas qrupları üzrə isə mayın 20-də keçiriləcək.

Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olmaq istəyənlər üçün sınaq imtahanlarının 1, 15, 29 aprel tarixlərində və iyun ayında (1 dəfə) keçirilməsi nəzərdə tutulur.

Bundan başqa, ali təhsil müəssisələrinə, ümumi və tam orta (9 illik və 11 illik) təhsil bazasında kolleclərə qəbul olmaq istəyən və qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün "Azərbaycan dili" fənni üzrə birinci imtahan aprelin 22-də, ikinci imtahan isə iyunun 10-da keçiriləcək.

Ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının I mərhələsi fevralın 25-də, rezidenturaya qəbulun birinci mərhələsi isə aprelin 1-də keçiriləcək.

19, 27 yanvar tarixlərində rezidenturaya qəbul olmaq istəyənlər üçün elektron sınaq imtahanı (baza fənləri üzrə), fevralın 4-də isə magistraturaya qəbul olmaq istəyənlər üçün kağız daşıyıcılar vasitəsilə sınaq imtahanı (I mərhələ üzrə) keçiriləcək.

Bakı şəhəri və bölgələr üzrə ümumi (9 illik) orta təhsil bazasında təhsilalanlar üçün buraxılış imtahanlarının birinci mərhələsi 4, 11 və 18 mart tarixlərində təşkil olunacaq.



Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən (həmçinin eksternat qaydasında buraxılış imtahanı verən) əvvəlki illərin məzunları üçün qəbul imtahanlarının birinci mərhələsi 8 aprel tarixində keçiriləcək.

Peşə liseylərinin şagirdləri (11-ci sinif) üçün buraxılış imtahanı martın 18-də keçiriləcək.

Qeyd edək ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlar kütləvi xarakter daşıdığı üçün tədbirlərin qrafiki bir neçə dövlət orqanı ilə birgə müzakirə olunur, razılaşdırılır və yekun qərar qəbul olunduqdan sonra ictimaiyyətə elan olunur. Digər imtahanların da qrafiki müəyyən olunduqdan sonra KİV-də məlumat veriləcək və mərkəzin saytının "təqvim" bölməsinə əlavə ediləcək. Vətəndaşlara saytın bu bölməsini mütəmadi olaraq izləməyi tövsiyə edilib.

# Əli İnsanovun "haqq yolu"...

## "O, tərəfdarlarını ümidləndirməyə çalışır"



**Həbsdəki sabiq səhiyyə naziri Əli İnsanovun yanvarın 16-da - onun kasasiya şikayəti təmin edilmədikdən sonra cəza çəkdiyi 13 saylı cəzaçəkmə müəssisəsindən verdiyi bəyanatda bəzi diqqətçəkən məqamlar var. Sabiq nazir barəsində çıxarılan bu cür qərarların onu "haqq yolundan döndərə bilməyəcəyini" deyir.**

Sitat: "13 ildir ki, mənə qarşı siyasi repressiyalar amansızlıqla davam etdirilir. Ali Məhkəmə Bakı Apelyasiya Məhkəməsinin yalan və qərəzli ittihamlar əsasında çıxarılmış, böhtan xarakterli qərarını təsdiqlədi. Mübarizə əzmimi qırmağa yönəlmiş belə qərarlar məni haqq yolumdan döndərə bilməz".

2005-ci ilə qədər hazırkı iqtidarın əsas fiqurlarından olan, vəzifədə olarkən demokratik düşərgəyə qarşı ən sərt mövqedə dayanan, siyasi mövqeyinə görə xeyli sayda tibb işçisini işdən qovan sabiq nazirin həbsindən sonra tamam dəyişməsi və son illərdə özünü siyasi lider kimi göstərməsi maraq doğurmaya bilməz.

Maraqlı həm də odur ki, o, "haqq yolu" dedikdə nələri nəzərdə tutur?

Bəziləri hesab edir ki, əslən Qərbi Azərbaycandan olan və bu bölgənin insanları arasında müəyyən nüfuza sahib olan sabiq nazir məhz bu elektorata arxalanır. Onun həbsxana iradəsinin müzakirə olunmayacaq dərəcədə yüksək olmasının da məhz bu amildən qaynaqlandığı vurğulanır. Belə iddialar var ki, 2016-cı ildə 11 illik cəzasının bitməsinə az qalmış onun yeni ittihamla 7 il də məhkum edilməsi keçmiş komandasına qarşı münasibətini daha da radikallaşdırıb. Amma o, indiki durumda nə edə bilər?

**Siyasi şərhçi Natiq Miri bildirdi ki, hakimiyyətdən düşmüş və ciddi iddialarla çıxış edən şəxslərin sayı barmaqla sayıla bilər:** "Praktikada bu cür halları çox az müşahidə etmişik. Keçmiş səhiyyə naziri Əli İnsanovla bağlı bu cür hadisələr yaşanır. 12 ildən çoxdur həbsdə olan bir şəxsin öz iddialarından vaz keçməməsi, ayrıca hakimiyyətlə hər hansı bir uzlaşmaya getməyə maraq göstərməməsi bir növ prinsipial mövqeyi ortaya qoyması kimi başa düşülür. İstənilən bir halda daşı ətəyindən tökməklə, hakimiyyətlə müəyyən sövdələşməyə gedib, həbsdən azad olaraq, Avropanın ən inkişaf etmiş şəhərlərində yaşamaq imkanı ola-ola Əli İnsanov buna getmir. Qərbi azərbaycanlılar arasında Əli İnsanov müəyyən bir nüfuza sahib şəxsdir. O, dünən də, bu gün də elədir. İnsanov da özünü bir növ qərbi azərbaycanlıların lideri kimi aparır. O, həbsxanada olsa da, hesab edirəm ki, Azərbaycanda gedən siyasi prosesləri izləyir. Ölkənin siyasi müstəvisində bir növ siyasi lider boşluğu yarandığı üçün Əli İnsanov kimi imkanlı, hakimiyyətdə olmuş bir şəxs irəli çıxmaq istəyində olacaq. Mənə elə gəlir ki, bu açıqlamaların arxasında duran bir səbəb də budur. Əli İnsanov siyasi lider boşluğunu doldurmaq istəyir. İctimai rəyi buna yönəltmək istəyini ortaya qoyur. Bu cür açıqlamalar gələcəyə hesablanıb. O, müdafiəçilərinə belə açıqlamaları ilə mənəvi cəhətdən enerji verir. Bununla hələlik heç nəyin bitmədiyi mesajını verir. Bundan əlavə, dəstəkçilərini toparlamaq istəyini ortaya qoyur. Siyasi vəziyyət dəyişəcəyi təqdirdə Əli İnsanov arzularını gerçəkləşdirəcəyinə ümidlidir. Məhz bunlara görə Əli İnsanovun məlum bəyanatları verdiyini düşünürəm".

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018



# Müşavirin oğurlanmış milyonu

Xalid KAZIMLI

**Hər gün haqq-ədalətdən, qanunçuluqdan, qanunun aliliyindən-filandan yazırıq, danışırıq, amma gözümüzün önündə elə ciddi hadisələr olur ki, bu barədə yalnız qısa, quru xəbərləri oxuyub keçirik, məsələnin mahiyyətinə varmır, dərininə getmir, ondan çıxan nəticələri incələmirik.**

Dünən agentliklərin və saytların xəbər bülletenlərində gedən bir kriminal informasiya bu silsilədən idi.

Xəbərin başlığı çox yerdə beləydi: "Ziya Məmmədovun müşavirinin qızıllarını oğurlamaqda suçlanan şəxs yenə həbs edildi".

Söz yox, burada sabiq nəqliyyat naziri Ziya Məmmədovun adının çəkilməsi xəbərə daha çox oxucu cəlb etmək üçündür, amma heç də təsadüfi deyil. Çünki iki il əvvəl təxminən 1 milyon dollarlıq qızıllarını oğurlatdıran şəxs məhz Ziya Məmmədovun müşaviri, daha dəqiqi, müşavirlərindən biri olub *(müşavir və 1 milyon - uzun şərhə ehtiyac varmı?)*

Adamın ad-soyadı Çingiz Baxşıyevdir. O, bir qohumuna güvənib, etibar edib, necə deyərlər, simsar deyib bağrına basıb, amma həmin şəxs onun etibarından sui-istifadə edib, özünün və övladlarının "qara gün" ehtiyatını mənimsəyib.

Bu şəxsin də ad-soyadı Rövşən Əhmədovdur. Belə anlaşılır ki, Əhmədov Baxşıyevin etibarından ona görə sui-istifadə edib ki, onun bu qədər var-dövləti halal yolla qazanmadığını bilib və düşünüb ki, o, qohumuna 1 milyonluq fırıldaq gəlsə, o, bunu açıb-ağartmayacaq.

Keçmiş dönəmlərdə beləydi. Bir vəzifəli və varlı adamın evindən külli miqdarda pul-para, qızıl-zinət əşyaları oğurlananda adam qorxusundan hüquq-mühafizə orqanlarına şikayət etmirdi, düşünürdü ki, oğrunu buraxıb onun özünü dolaşdıracaqlar, "bu pullar səndə hardandır" deyə soruşacaqlar.

Ancaq görünür, dövran dəyişib. İndi oğurluqla, korrupsiya və rüşvətxorluqla zəngin olan adamlar sərvətlərini nümayiş etdirməkdən qorxmurlar və təbii ki, onlar qarətə, soyğuna, dələduzluğa məruz qaldıqları vaxt hüquq-mühafizə orqanlarına şikayət etməkdən çəkinmirlər. Çünki artıq onlara "bu pullar hardandır" sualı verən yoxdur.

Avtonəqliyyat xidmətinin keçmiş rəisi, sabiq nazirin sabiq müşaviri Çingiz Baxşıyev də elə edib. Nəticədə R.Əhmədov həbs edilib.

Ancaq adam necə düzüb-qoşubsa, kimin köməyindən necə və nəyin müqabilində yararlanıbsa, qısa müddətdən sonra azadlığa çıxıb.

Əlbəttə, bu yerdə hamının ağlına yalnız bir fikir gələcək ki, R.Əhmədov taladığı 1 milyonun, son məzənnə ilə və dəqiq şəkildə yazası olsaq, 800 min manatın bir hissəsini, bəlkə də yarısını canını həbsdən qurtarmaq üçün sərf edib.

Başqa nə cür ola bilər ki? Ötən yay 40-50 manat borca görə Batumiyə istirahətə getdiyi yerdə avtobusdan düşürülüb, Gürcüstana buraxılmayan N qədər insan olub. Qonşusunun 3 manatlıq toyuğunu oğurlamaq üstündə türmələrdə yatan yüzlərlə adam var. Amma Əhmədov 800 minin arxasına keçir və az qala şifahi töhmət alır.

Ona görə də Baxşıyev hökmdən apelyasiya şikayəti verib və Əhmədov nə qədər çabalasa da *(intihara cəhd, psixiatriya dispanserinə yerləşdirilmək, məhkəmələrə gəlməmək və s.)* onu yenidən həbs ediblər və yenidən mühakimə edəcəklər.

Bəlkə də o, yenə qurtulacaq, bəlkə də bu dəfə 6-7 il həbs cəzası alacaq. Burası o qədər də önəmli deyil.

Əsas məsələ odur ki, ölkənin Femidası bu gündədir. Deməli, əlində pulu olan adamlar cinayət məsuliyyətində sıyrıla, qısa müddətdən sonra yenidən azad cəmiyyətə qovuşa bilirlər.

Bir də anlaşılır ki, arxalı, pullu adamlar ortaya yenidən iradə və vəsait qoyandan sonra azadlığını satın almış adamı yenidən həbs etdirməyi bacarırlar.

Məsələ budur. Son vaxtlar azadlıqda olan, sərbəst şəkildə, yüngül cinayət əməlinə görə mühakimə olunan müttəhimlərin məhkəmə zalında həbs edildiyinin şahidi oluruq. Hamı onlara şərti iş kəsiləcəyini gözlədiyi yerdə adamı şakk deyə qandallayırlar.

Bir də bunun əksi var: həbs altında saxlanılan və məhkəməsinə dustaq maşınında aparılıb-gətirilən şübhəli şəxslər məhkəmə zalındaca azad olunur, sərbəst buraxılır.

Bütün bunlar bu sistemdəki neqativ hallardan xəbər verir. Xalq bu neqativ halları daha lakonik qiymətləndirir: "Pulunu alıb buraxdılar"; "Pulunu düzəldib vermədi, basdılar, getdi".

Ədalətli mühakiməsi, obyektiv və dürüst məhkəməsi olmayan ölkədə heç nə olmaz - bu, belə bilinsin.

---

**1990-cı ildən etibarən hər ilin bu günləri Azərbaycan gündəminin əsas müzakirə mövzusu 20 Yanvar faciəsi olur. Artıq iki gündən sonra Bakıda dinc əhaliyə qarşı həyata keçirilən qırğınların üstündən 28 il ötəcək. Hər ilin bu günləri məlum faciə ətrafında yeni-yeni iddialar, ittihamlar səslənir, faktlar meydana çıxır.**

# Pənah Hüseyndən sabiq prezidentə sərt cavab

## "Əsl həqiqətləri tam üzə çıxarmaq istəyirlərsə..."



Pənah Hüseyn



Ayaz Mütəllibov

Bu il də belə iddia, ittihamların sayı az deyil. Xüsusilə 28 il öncə Azərbaycandakı milli-azadlıq hərəkatına rəhbərlik edənlərlə hakimiyyətdə təmsil olunanlar günahı bir-birilərində görürlər. İqtidarda olub, faciənin birbaşa baiskarı sayılanlar hərəkata rəhbərlik edən Xalq Cəbhəsini mitinqləri dayandırmadığına görə qırğınların səbəbkarı adlandırır. AXC-nin isə arqumentləri faktlara söykənir və kifayət qədər əsaslıdır. Bir faktı da deyək ki, AXC daxilində o zaman bir-birinə müxalif olan bəzi şəxslər var ki, faciədə ya özlərinin günahlarını etiraf edirlər, ya da rəhbərlikdə təmsil olunan digərlərini ittiham edirlər.

Son olaraq, sabiq prezident, 20 Yanvar faciəsi vaxtı Azərbaycana rəhbərlik etmiş Ayaz Mütəllibovun "Yeni Müsavat"a verdiyi müsahibə bu məsələni daha da aktuallaşdırıb. Şəxsinə olan ittihamları qətiyyətlə rədd edən A.Mütəllibov ənənəvi olaraq, o zamankı AXC-ni faciənin əsas günahkarı kimi təqdim edib. Eks-prezident faktiki ölkəyə idarəçiliyi itirdiklərini etiraf etməklə yanaşı bildirib ki, o zaman Azərbaycan siyasi meydanında iki qüvvə qarşıdurmada oldu: Azərbaycan tərəfdən Xalq Cəbhəsi, Moskva tərəfindən də Kreml. A.Mütəllibov əminliklə onu da deyib ki, Bakı qarnizonunun ətrafına yığışan adamlar dağılışsa, qırğın olmazdı.

**20 Yanvar faciəsinin canlı şahidlərindən olan, AXC-nin İdarə Heyətinin üzvü, sabiq baş nazir, AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında 28 ildən sonra bəzi üstüörtülü mətləblərin üstünü açdı:** "Bu məsələ kifayət qədər siyasilər, həmin dövrün hərəkat iştirakçıları, müstəqil ekspertlər tərəfindən şərh edilib. O cümlədən Moskva, hətta Ermənistanın bəzi ekspertləri də bu məsələyə münasibət bildiriblər. Gəlinən ümumi rəy ondan ibarətdir ki, Bakı qırğını Moskva tərəfindən Azərbaycan xalqına qarşı törədilən cinayətdir. Bu o dövrdə SSRİ-yə daxil olan milli respublikalarda başlanan azadlıq hərəkatını boğmaq üçün həyata keçirilmişdi. Həmin əməliyyat başlamamışdan xeyli əvvəl gedən azadlıq hərəkatını boğmaq üçün bu əməliyyata hazırlıqların getdiyi barədə danılmaz sübutlar var. Bu əməliyyat, plan həm də ölkə daxilində AXC-nin nüfuzunu azaltmaq, xalq hərəkatına rəhbərliyin qarşısını almaq, qurum daxilində parçalanmalar yaratmaq üçün həyata keçirilmişdi. O dövrdə Moskvanın yerli orqanlarından bu məsələdə istifadə olunmuşdu. Həmin faciənin AXC-nin üzərinə atılması, xalqın haqlı tələbləri ilə keçirilən mitinqlərə bağlanması, bu aksiyaların mərkəz tərəfindən hazırlanan təxribat xarakterli əməllərlə eyniləşdirilməsi cəhdləri Moskva tərəfindən həyata keçirilən cinayəti ört-basdır etməkdir. Bu cinayəti ya tamamilə, ya da qismən Azərbaycan xalqının, yaxud xalq hərəkatının təşkilatlarının üzərinə atmaq cəhdləri milli xəyanətdən başqa bir şey deyil".

**P.Hüseyn sabiq prezidentin dediklərinə sərt reaksiya verdi:** "Əgər əsl həqiqətləri tam üzə çıxarmaq istəyirlərsə, bunun üçün Ayaz Mütəllibov və digərlərinin həmin hadisələr haqqında onlara məlum olan əsl həqiqətlərdən danışmaları çox doğru olardı. Məsələn, Ayaz Mütəllibovun müraciəti ilə ölkəyə əlavə qoşun hissələrinin yeridilməsi haqqında onun özü danışsa, daha yaxşı olardı. Unutmaq lazım deyil ki, Azərbaycan Kommunist Partiyası Bürosunun 9-10 yanvar tarixli qərarı ilə 11 yanvarda, yəni haqqında çox müxtəlif fikirlər deyilən Milli Müdafiə Şurası yaradılmamışdan iki gün əvvəl, eləcə də Mərkəzi Komitə və digər yerlərin qarşısındakı mitinqlər başlamamışdan və barrikadalar meydana gəlməmişdən əvvəl Ayaz Mütəllibovun müraciəti ilə Bakıya guya sabitlik yaratmaq üçün əlavə qoşun hissələri yeridilmişdi. O, bundan çox danışsa daha düzgün olardı. Bu barədə məlumat versin. Bundan əlavə, Ayaz Mütəllibov Bakıda birinci katib vəzifəsinə gətirilməsi üçün yüksək vəzifəli şəxslər tərəfindən həyata keçirilən əməliyyatdan danışsın. Təəssüf ki, xalq hərəkatının bəzi üzvlərinə məlum olan bu faktlar barədə onlar ortalığa məlumat qoymurlar. Onsuz da bu hadisələr barədə hər kəsə məlum olan dolğun faktlar var və bu təkzib olunmayan faktlardır. Birmənalı şəkildə hər kəs anlayır ki, Moskva Azərbaycan xalqına qarşı təcavüz edib, qırğın törədib. Amma istənilən halda ayrı-ayrı şəxslərin, o cümlədən o dövrdə rəhbərlikdə olan şəxslər barəsindəki məlumatların meydana çıxmasına çox böyük ehtiyac vardır. Biz bu məsələlərə uzun müddət diqqət cəlb etməkdən ona görə çəkinmişik ki, mərkəzin burada törətdiyi əməlləri ört-basdır etməyə təsir göstərməsin. Amma bir halda ki, Ayaz Mütəllibov o dövrdəki hərəkətlərinə və fəaliyyətinə uyğun olaraq, bu dövrdə də fəaliyyətini davam etdirirsə, o zaman onun da fəaliyyətinə qiymət verilməlidir. O vaxt çox məşhur bir şüar var idi ki, heç olmasa rəhbərlikdə olan kişilərdə bir Elmira Qafarovada olan qədər kişilik, qeyrət olardı ki, ən azından proseslərə ciddi şəkildə mane ola bilməsələr də, öz mövqe və rəylərini ortalığa qoyardılar. O kişilik və qeyrət olsaydı ifadəsi ilk növbədə Ayaz Mütəllibova aiddir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 12 (6801) 18 yanvar 2018

# "Bankların bağlanması çıxış yolu deyil"

## Mütəxəssislər bu sektorda sağlamlaşdırma yollarını göstərdilər

**Ölkədə bank sektoru xeyli sayda çətinliklə üzləşib. Bir çox mütəxəssislər bu sektoru 2018-ci il üçün iqtisadiyyatın ən problemli sahəsi kimi qiymətləndirirlər.**

Xatırladaq ki, ötən ilin sonlarında Azərbaycanda daha bir bank - "Dəmirbank" bağlanıb. Beləliklə də bağlanan bankların sayı 13-yə çatmış oldu. Əksər mütəxəssislər hesab edirlər ki, bankların bağlanması prosesi bu il də davam edəcək. Bəzi rəylərə görə, 2018-ci ildə daha 4-5 bankın lisenziyası ləğv olunacaq. "Moody's" beynəlxalq reytinq agentliyinin mütəxəssisləri qeyd edirlər ki, problemli banklarla bağlı əsas məsələ kapital çatışmazlığıdır: "Manatın devalvasiyasından sonra problemli bankların aktivlərinin keyfiyyəti pisləşib. Hazırda bağlanmaq təhlükəsi ilə üzləşən banklar səhmdarlar və daha güclü bazar iştirakçıları tərəfindən kapital inyeksiyası həyata keçirilməsinə baxmayaraq minimum kapital adekvatlığı əmsalına cavab verməyən banklardır. Buna görə də sektorun zəif oyunçuları 2018-ci ildə bazarı tərk edəcək". (APA)

**Agentlikdən verilən açıqlamada o da qeyd olunub ki, hazırda Azərbaycanın bank sektoru ilə bağlı proqnoz neqativdir:** "Bu proqnoz onu göstərir ki, mövcud şəraitdə banklar ödəmə qabiliyyəti riskləri ilə üzləşməkdə davam edəcək. Neft qiymətlərinin yüksəlməsi tədricən iqtisadi inkişafa və manatın məzənnəsinin sabitləşməsinə dəstək olub. Buna baxmayaraq, bankların milli valyutada likvidlik problemi davam edir. Bundan başqa, problemli kreditlərin həcmi də yüksək olaraq qalır".

Göründüyü kimi, xarici mütəxəssislər də Azərbaycanın bank sektorunun üzləşdiyi çətinlikləri qiymətləndirərkən likvidlik, problemli kreditlərin həcminin maksimum həddə çatması kimi məsələləri qeyd edirlər.

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu bildirir ki, 13 bankın bağlanması ölkədə bütövlükdə bank sektoruna inamı sarsıdıb ki, bu da əsas problemlərdən biridir:** "Digər bir məsələ bankların özlərinin şəffaflığı və hesabatlığı problemidir. Bu istiqamətdə də ciddi çətinliklər mövcuddur, xüsusilə bank məlumatlarına çıxış imkanları məhduddur. Hətta öz səhmdarlarına, professional təşkilatlarına belə informasiyalarını açıqlamayan banklar var. Bankların əsas çətinliklərindən biri də problemli kreditlərin artması ilə bağlıdır. Belə kreditlər son bir ildə 35 faizə yaxın - təxminən 500 milyon manat artaraq 2 milyard manata çatmaq üzrədir. Problemli kreditlərin ümumi kredit portfelindəki payı 15 faizi ötüb".

**İqtisadçı-alimin sözlərinə görə, kredit qoyuluşlarının aşağı düşməsi də ciddi problemlərdən biridir. Bu, problemli kreditlərin artması və kredit faizlərinin yüksək olması ilə izah oluna bilər:** "İqtisadiyyatda kredit qoyuluşlarının aşağı düşməsi həm də biznes və sahibkarlıq mühitində işgüzarlığın azalması ilə də əsaslandırıla bilər. Kredit qoyuluşları azalırsa, demək, faiz gəlirləri də azalır. Bu isə bankların faiz gəlirlərinin aşağı düşməsi, onların xalis mənfəətinin azalmasına gətirib çıxarır. Bankların bir problemi də oliqapoliyadır. Bütövlükdə bazarı 5 bank arasında bölmək olar: "Beynəlxalq Bank" hələ də hökmran mövqeyini qoruyub saxlayır. Bundan əlavə, "PaşaBank", "Kapitalbank", "Xalqbank" və "Azərbaycan Sənaye Bankı" əsas aktivlərə malik olan banklardan hesab olunur. Bu bankların ümumi aktivləri bütövlükdə bank bazarındakı aktivlərin 80 faizinə yaxınını təşkil edir. Bu isə bank sektorunda təmərküzləşmənin mövcudluğunu, oliqapollaşmanın gücləndiyini söyləməyə əsas verir. Ötən ilin 9 aylıq yekunlarına əsasən bankların kapitallaşma səviyyəsinin aşağı olması da əsas problemlərdən biri sayılır. Belə problemi olan banklardan birincisi - "Dəmirbank" artıq bağlanıb. Daha bir neçə bankın kapitalı da 50 milyon manatdan aşağıdır. Belə bankların sayı 5 civarındadır. Bu da bankların bağlanması, təmərküzləşməsi prosesinin davam edəcəyini söyləməyə əsas verir. Bankların xalis əməliyyat mənfəətləri azdır, qeyri-faiz gəlirləri aşağıdır. Bütün bunlarla yanaşı, faiz gəlirləri də problemli kreditlərin artması baxımından aşağı düşməkdədir. Qeyri-faiz və faiz xərcləri də artır. Düzdür, banklar çalışırlar xərclərini rasionallaşdırsınlar və bu da son zamanlar onlarda işçilərin sayının azalması ilə müşayiət olunur. Amma bütövlükdə deyərdim ki, xərclərin azalması heç də bank sektorunda olan mövcud problemlərin aradan qaldırılmasına imkan vermir. Buna görə də bu il ərzində bankların sağlamlaşdırılması prosesi davam etdirilməlidir. Çox güman ki, bu il və gələn il ərzində bankların sayı 25-dək azalsın".



Qubad İbadoğlu



Vahid Əhmədov

**Ekspertə görə, bankların böyük problemlərindən biri də likvidliklə bağlıdır:** "Bankların likvidlik problemi var. Depozitə yığdıqları vəsaitləri belə yerləşdirə bilmirlər. Depozitləri yerləşdirib gəlir əldə etməyəndə faizlərin ödənməsi mümkün olmur, bankın ümumi maliyyə vəziyyəti pisləşir. Bankların bağlanması ilə bu depozitləri qaytarmaq Əmanətlərin Sığortalanması Fondunun timsalında dövlətin üzərində qalır".

**Q.İbadoğlu hesab edir ki, bankların bağlanması çıxış yolu deyil:** "Düşünmürəm ki, bağlanan bankların hamısı maliyyə vəziyyətinin dəhşətli dərəcədə pis olmasına görə bağlanıb. Burada başqa amillər də rol oynayıb. Mümkün olan qədər bankların sağlamlaşdırılmasına çalışılmalıdır. Bunun üçün fərdi proqramlar olmalıdır. Bu proqramlar Mərkəzi Bankın, Maliyyə Bazarlarına Nəzarət Palatasının dəstəyi ilə həyata keçirilməlidir. Bankların özlərində şəffaflıq və hesabatlılıq gücləndirilməlidir. Onlar daha çox müasir korporativ idarəetmə metodları tətbiq etməlidirlər. Digər tərəfdən, bank sektorunda istehlakçıların hüquqlarının qorunması sahəsində də ciddi işlər görülməlidir. Bundan əlavə, müştərilər arasında maliyyə savadlılığının artırılması da diqqətdə saxlanmalıdır".

**Milli Məclisin üzvü, millət vəkili Vahid Əhmədov hesab edir ki, bankların bağlanması yanlış siyasətdir:** "Bankların bağlanması ciddi problemlər yaradır. Banklarda qalan əmanətləri dövlət ödəməli olur. Yaxud da sığortalanmayan əmanətlərlə bağlı vətəndaşlar ciddi çətinliklərlə üzləşirlər, məhkəmələrə müraciət olunur. Buna görə də ən yaxşı yol bankların birləşməsidir. Biz dəfələrlə bildirmişik ki, maliyyə durumu pisləşən banklar birləşsinlər. Birləşsinlər ki, kapital olsun, likvidlik olsun, kredit bazası olsun. Məndə olan məlumata görə, hazırda Maliyyə Bazarlarına Nəzarət Palatası banklar üzərində çox ciddi işləyir. Çünki dövlət başçısının göstərişi var ki, banklarda bu il sağlamlaşdırma prosesi başa çatmalıdır. Buna görə də inanmıram ki, bu il bank sektorunda hansısa ciddi problem yaransın. Ola bilər ki, yenə də 1-2 bankı bağlasınlar. Amma mənim məsləhətim budur ki, bağlamaqdansa, diqqəti bankların birləşdirilməsinə yönəltmək lazımdır".

**Millət vəkilinin fikrincə, iri banklara dövlət dəstəyi göstərilməklə onları vəziyyətdən çıxarmaq daha məqsədəuyğundur:** "Vaxtında biz problemli kreditlər məsələsinin həllində əhaliyə dəstək göstərilməsini təklif etdik. Qəbul etmədilər, indi problemli kreditlər bankları çətin duruma salıb. Hər bir halda, iş gedir, güman edirəm ki, proses tezliklə bank sektorunun tam sağlamlaşdırılması ilə yekunlaşacaq".

❑ **Dünya SAKİT**
❑ **"Yeni Müsavat"**

# Sübut edilə bilməyən benzin fırıldağı



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Çəkidə aldatmaq, südə su qatmaq və s. bu kimi fırıldaqların tarixi çox qədimlərə gedib çıxır. Sanki insanlar cəmiyyət formalaşdırmağa başlamazdan əvvəl kələk mexanizmlərini düşünüblərmiş...**

Bu əyri əməllərdən insanları çəkindirmək üçün həm bu dünyada, həm də o biri dünyada cəzalandırılacaqlarına dair xəbərdarlıqların da olması onu dələlət edir ki, bu kimi əməllər hələ peyğəmbərlərin zamanında olub. Amma insanlar elə o zamandan necə idilərsə, indi də elədirlər. Və texnologiyalar inkişaf etdikcə, dünya, cəmiyyətlər, toplumlar mürəkkəbləşdikcə, kələkbazlıqların da ona uyğun şəkildə yeni-yeni təzahürləri, formaları ortaya çıxır.

Bu kimi xoşagəlməz, əslində insanlıqdan uzaq, adamlara inamı sarsıdan işlərlə məşğul olanlara qarşı ən sərt tədbirlər sovetlər vaxtı görülürdü. Məsələn, bizim rayonda Qulu adlı dükandar cəmi 30 qəpiyə görə gedib 5 il türmə yatmışdı. 70 qəpiklik "Kosmos" siqaretini müştəriyə 1 manata satımışdı, o da şikayət etmişdi, gəlib Qulunu tutub damlamışdılar. Bu sərt tədbirlər səbəbindən SSRİ vaxtı əliəyriliklə, tərəzi "basmaqla" məşğul olanların sayı minimuma enmişdi. Onlara az qala vətən xaini kimi baxılırdı. Xüsusi bir maddə, idarə də vardı beləlləri üçün - "Sovet əmlakını talayanlarla mübarizə idarəsi" idi adı səhv etmirəmsə...

Əslində kapitalizm quruluşu əliəyriliyin, kələkbazlığın qarşısını təbii metodlarla alınmasına səbəb olmalıdır. Nədən ki, burada rəqabət mühiti var, istehsal müəssisəsi, şirkət, mağaza əsasən özəl mülkiyyət olduğu üçün sahibkarlar özlərinin inkişafı, daha çox müştəri cəlb etmək məqsədilə dürüst çalışmağa maraqlı olmalıdırlar. Amma təəssüf ki, hələlik bizim ölkəmizdə kapitalizmin sanki vəhşi, sivil dünyada rast gəlinməyən forması müşahidə olunur. Əksər sahibkarlar müştərilərə vicdanlı xidmət göstərməklə deyil, anındaca, ilk fürsətdə "yolmaqla", kələk gəlməklə qazanmağa çalışırlar. Sanki təfəkkürlərdə "indi nə qapazladım, qapazladım, nə bilim sabah nə, necə olacaq" düşüncəsi formalaşıb...

Azərbaycanda vətəndaşlara kələk gəlinən obyektlər sırasında yanacaq doldurma məntəqələri öndə gəlir. Son illərdə bu sahədəki acınacaqlı durumu aşkarlamaq daha da asanlaşıb. Nədən ki, çəndə nə qədər yanacaq olmasını göstərən əqrəbli mexaniki qurğu müasir maşınlarda elektron qaydada litri ölçən cihazla əvəzlənib. Yəni artıq çəndəki yanacağı təqribi deyil, dəqiq rəqəmlə görə bilirik. Amma nə olsun? Azərbaycanda əksər yanacaq doldurma məntəqəsindən (YDM) ikisinin, məsələn, 20 litr yanacaq əvəzinə 18, maksimum 19 litr yanacaq vurduqlarını sübut etmək mümkün olmur. Son aylarda bununla bağlı maraqlı müşahidələrin şahidi olmuşam. Konkret iki faktı deyim: Maşında benzinin qurtarmağa az qaldığını siqnal verən qırmızı işıq yandı və bundan təxminən 2 kilometr qarşıda ənənəvi olaraq yanacaq doldurduğum məntəqəyə girdim. 20 manatlıq - 22,2 litr yanacaq (Aİ 92) doldurdum və kilometrajı sıfırladım. Həmin yanacaqla avtomobili 249 km sürdükdən sonra Xırdalan dairəsi yaxınlığında qırmızı işıq yandı. Qarşıda tıxac olduğunu görüb, "birdən tıxacda çox qalaram, ənənəvi YDM-ə çatmaram" deyə düşünüb də Xırdalan ərazisində - Ekologiya postunun yanındakı bir YDM-ə girib yenə 20 manatlıq yanacaq (Aİ 92) vurdum. Müqayisə üçün kilometrajı yenə sıfırladım. Sonrakı günlər də maşını eyni xətt üzrə - iş-ev - sürdüm, bu dəfə cəmi 232 kilometr getdikdən sonra qımızı işıq yandı. Nəzərə alsaq ki, maşınım 100 kilometrə ortalama 9-9,5 litr yanacaq sərf edir, deməli, sonuncu dəfə azı 1,5 litr az yanacaq vurulub. Bu cür testləri azı 5 dəfə aparmışam son aylarda. Eyni mənzərə - bir YDM düzgün vurur, ikisi oğurlayır...

Təsəvvür edin, hər 20 litrdə 1,5 litr yanacaq kəsilir və bunu YDM-lərə sübut etmək istəyəndə, ən sonda "get, nə bilirsən elə" cavabını alırsan...

Hər il ölkədə təxminən 1,3 milyon ton civarında benzin, 1,2 milyon tona yaxın dizel yanacağı satılır. Hesab edək ki, lap bu YDM-lərin tən yarısı düzgün işləyir. Ümumilikdə satılan 600 min ton benzinin, elə o qədər də dizelin lap az göstərici ilə götürsək 5 faizi kəsilirsə, burada söhbət il ərzində təxminən 100 milyon manata yaxın vəsaitin vətəndaşlardan oğurlanmasından gedir!

YDM-lərdə çalışan tanış operatorlar da bu kələyin olduğunu etiraf edirlər. Məgər Dövlət Standartlaşma və Patent Agentliyinin bu fırıldaqlardan xəbəri yoxdurmu? Əlbəttə var. Niyə bu məsələyə göz yumulur, onu deyə bilmərəm. Dəqiq səbəbi bilmirəm. Hər halda, biz hüquqi dövlət qururuq. Odur ki, dövlət baba bu məsələyə də əncam qılmalıdır.



# Kim deyir ki, qəhrəmanları hamı sevir...

**Hüseynbala SƏLİMOV**

**Sosial şəbəkələrdə yazılanlardan yalnız ənənəvi mediaya sızanlardan xəbər tuturam. Beş-on manat qazanmaq üçün o qədər yazmaq lazım gəlir ki, durub "şəbəkə fəalı" da olmağa nə həvəs qalır, nə də vaxt...**

Əksər hallarda heç mediaya sızan və "gündəmi zəbt edən mövzular" da mənə maraqlı görünmür, çünki düzgün anlaşılmayan məsələlərdən biri də "gündəmi zəbt etmək"dir...

Bir kimsə demir ki, bunun başqa tərəfi də "gündəmi necə zəbt etmək" söhbətidir. Elə şey yazmaq olar ki, onu lap bir gündə bir milyon adam oxuyar, çünki biz həm də xoruz döyüşdürən, it qapışdıran xalqıq!..

Amma buna dəyərmi? Düzdür, amerikalıların bir sözü var ki, haqqımda nə yazırsınızsa yazın, amma familiyamı düz yazın!..

Üstəlik, hər yazı-pozu adamının iki dərdi var: biri yaxşı qonorar almaq və digəri də yaxşı oxunmaq. Amma biri var, "yaxşı oxunan şeylər" haqda yazasan, biri də var ki, yazdıqlarının yaxşı oxunmasını istəyəsən. İnanın, bunlar fərqli məsələlərdir.

Yaşım əllini keçdiyindən və neçə illərdir, yazı-pozu ilə məşğul olduğumdan nəsə yazanda yalnız özümlə olur və bəzi fikirlərimi deyim, ya münasibətimi, - qərəz, bunları insanlara çatdırmaq haqda baş sındırıram. Şəxsən mənim üçün üç intellektual oxucu yetərlidir, qoy, bu üç oxucu yazımı oxusun və bəyənsin - inanın, mən artıq xoşbəxtəm...

Amma böyük əksəriyyətin dərdi-səri başqadır, böyük əksəriyyət, yazılarını, fikirlərini çatdırmaq əvəzinə familiyalarını çatdırmağa və bu yolla məşhurlaşmağa çalışırlar. Bir də görürsən ki, bu yolla böyük, hətta sürəkli mübahisələr yaranır, kimlərinsə adları medianın ön səhifələrindən düşmür. Doğrusu, onların da 95 faizi mənə bayağı görünür, ona görə də mənim üçün mövcud deyillər. Yalnız bircə dövrdə, 90-cı illərin ortalarında liberal dəyərləri müdafiə etmək, yaymaq və o dövrdə hazırladığımız liberal proqramların məğzini insanlara çatdırmaq üçün mübahisələrə qatılırdım.

Amma tez də gördüm ki, səviyyəli mübahisə aparan çox azdır, çoxunu əvvəldə ərz etdiyim məsələ maraqlandırırdı - mətbuat səhifələrində görünmək,- səmimi söhbət məqamında deyildiyi kimi, "xal toplamaq"...

Hələ onda gördüm ki, bu proseslərdə kimin adını çəkmək məsələsi də siyasi məsələdir, məsələn, filankəsin adını çəkmək olmaz, ona görə ki, məşhurlaşar və yaxud da siyasi düşərgədə tanınar...

Qərəz, tez zamandaca bundan da iyrəndik və başladıq cəmiyyətə üz tutaraq liberal dəyərləri təbliğ etməyə. Hətta indinin özündə də məqamı düşəndə bunu edirik...

Bəli, bir daha heç bir mübahisəyə qatılmadıq və bundan sonra da qatılmaq fikrimiz yoxdur. Məsələn, bizdə keçmiş və indiki ədiblərlə bağlı guya xeyli "mübahisə"lər olurdu. Prinsipcə, biz də yazar kimi və yaxud da ciddi oxucu kimi onlara qatıla bilərdik. Amma etmədik bunu, edəndə də konkret ədiblərdən çox, ədəbiyyatın özündən yazdıq...

Ən çox dartışılan mövzulardan biri də tanınmış ədiblərlə tanınmaq iddiasında olanların savaşı idi. Xüsusən də sovet dövrünün ədibləri daha çox müzakirə mövzusu idi.

Amma onlar da qəti maraqlı görünmədi, çünki hər bir ədib haqqında, ümumiyyətlə, yaradıcı insan haqqında azı üç-dörd konteksdə danışmaq və yazmaq olar. Eləcə də sovet dövrünün klassik ədibləri haqqında...

Di gəl, bu mövzunu sevənlər üçün belə meyarlar yox idi və mən bütün bu davalarda daha çox bir şey görürdüm: aşağılamaq mərəzi...

Gənclərimiz sanki ədəbiyyatı muzey salonu kimi təsəvvür edirdi. Elə bil, bu salonda çoxlu heykəllər qoyulub, yetər, onları aşırasan, boşalmış yerə dərhal sənin heykəlini qoyacaqlar...

Amma, vallah-billah, belə olmur, qardaşlar. Bizim rəsmi milli-məhəlli salonlardan savayı ədəbiyyatın və eləcə digər yaradıcı sahələrin öz əbədi salonları var və orada yalnız nəsə dəyərli bir şey yaratmaqla yer tutmaq olar.

Deyim ki, aşağılamaq mərəzi tək gənc ədiblərə və yaxud da media əhlinə xas deyil. İnsanlar həmişə özlərindən fərqlənənləri və onların edə bilmədiklərini edənləri sevmirlər.

Kim deyir ki, qəhrəmanları hamı sevir və uca tutur! Əsla belə deyil, onlar sağlığında cəmiyyətin böyük kəsimi üçün necə anlaşılmaz olurlarsa, axıradək də anlaşılmaz qalırlar və cəmiyyət sadəcə, onlara qəribə adamlar kimi baxır. Hamı onlardan misal çəkir, amma heç kim onlar kimi olmaq istəmir...

# ABŞ-ın hədəfində olan 3 ölkə - onlar necə xilas oldu...

## Şahin Cəfərli: "ABŞ-ın gücünü həddən artıq şişirtmək lazım deyil, onun da gücünün sərhədi, limiti var"

**Bəzi ekspertlər ABŞ-ın son illər Türkiyəyə qarşı dağıdıcı planlar hazırladığını, lakin istəklərinə nail olmadığını vurğulayırlar. Xüsusilə də 15 iyul 2016-cı il çevriliş cəhdinin arxasında məhz Qərb dairələrinin dayandığı iddiası ciddi şəkildə səslənir. Lakin məlum olduğu kimi, Türkiyə dövləti bu xain hücumu dəf etməklə yanaşı, Qərbin digər planlarına qarşı da cəsarətlə duruş gətirməkdədir. İraqdakı "Kürdüstan" projesinin iflasa uğramasından sonra ABŞ Suriyadakı PKK və PYD kürd terrorçularını silahlandırıb Türkiyə sərhədlərində qardaş ölkəyə təhdidlər hazırlamağa girişib. Ancaq Ankara bu planı da alt-üst etmək üçün hərəkətə keçib.**

ABŞ-ın İran və Rusiya ilə bağlı planları da hələlik bir nəticə verməyib. Cənub qonşumuz bir sıra hallarda dünyanın supergücünə meydan oxuyur. İranda yanvar ayının ilk günlərində baş verən qarışıqlıqlar, iri şəhərlərdəki etirazlar da səngidi. Hətta ABŞ bu aksiyaları birmənalı dəstəkləsə də, hədəfinə çata bilmədi. Krımı ilhaq edəndən sonra Rusiya ilə ABŞ arasında yaranan "soyuq müharibə"nin də hələlik ciddi təsirləri nəzərə çarpmır. Baxmayaraq ki, ABŞ həm neftin qiymətini kəskin şəkildə aşağı salmaqla, həm də Rusiyaya qarşı sanksiyalar tətbiq etməklə, Putinə qarşı etirazları stimullaşdırmaqla istəyinə nail olmağa çalışıb. Lakin bütün bu cəhdlər hələ ki uğursuzluğa düçar olub. ABŞ-ın dağıtmaq istədiyi bu üç ölkə gücü nədən, kimdən alır? Həqiqətənmi bu dövlətlərin başında güclü liderlərin dayanması onları ABŞ-ın hədəfindən yayındırır, yoxsa Tramp administrasiyası zəifdir?

**"Türkiyə Qərb blokunun içərisində olan ölkədir, NATO-nun tamhüquqlu üzvüdür və bu ittifaq daxilində super güc ABŞ-ın qərarlarına veto qoymaq kimi bir imtiyaza sahibdir. Türkiyə daxilində ABŞ-ın və NATO-nun hərbi bazaları var. Türkiyə Avropa Birliyinə rəsmi namizəd olan ölkədir və Avropa Birliyi ilə çox sıx siyasi-iqtisadi əlaqələrə malikdir".**

**Politoloq Şahin Cəfərli bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. Ekspert Türkiyə ilə ABŞ arasındakı münasibətlərdə ciddi problem görmür:** "Ümumiyyətlə, Qərb dövlətlərinin Türkiyənin iqtisadiyyatında, xarici ticarətində böyük ağırlığı var, məsələn, Türkiyənin ixracatının 70%-dən çoxu Qərbin payına düşür. "Ak Parti" dövründə Türkiyəyə daxil olan təxminən 600 milyard dollarlıq xarici sərmayənin üçdə ikisi Qərbdən gəlib. Hətta Türkiyənin son illər inkişaf etməyə başlayan hərbi sənayesinin məhsullarının əsas alıcısı ABŞ-dır. Türkiyəni dağıtmaq istəsələr, belə edərlərmi? Belə bir ölkəni Qərb niyə parçalasın? Parçalayıb nə əldə edəcək? Düzdür, ABŞ və Avropada Türkiyənin hazırkı siyasətindən ciddi narazılıq var, prezident Ərdoğana neqativ münasibət formalaşıb, amma bunlar hələ mümkün olan problemlərdir". **Ş.Cəfərlinin fikrincə, sadəcə olaraq, səmimi və hərtərəfli dialoqa ehtiyac var:** "Bəsit dildə ifadə etsək, ABŞ istəyir ki, Türkiyə onun regional siyasətinə dəstək versin, İsrail ilə dostluqdan imtina etməsin və İsrailin təh-



lükəsizliyinə töhfə versin. Türkiyə isə bildirir ki, biz müstəqil siyasət yeridirik və prioritetlərimizi özümüz müəyyənləşdiririk, siz qarışmayın. Hər iki tərəfin mövqeyində haqlı və haqsız məqamlar tapmaq olar, ABŞ-ın müttəfiqliyə tamamilə zidd addımları olduğu kimi, Türkiyənin də müttəfiqliyə uyğun olmayan addımları var. Məsələn, amerikalılar 2003-cü ildə İraq əməliyyatı zamanı Türkiyənin ABŞ əsgərlərinin ölkə ərazisindən keçərək İraqa daxil olmasına icazə verməməsini hələ də unutmur. ABŞ-ın regional siyasətində baş rolda olan Pentaqon hələ də bu hadisənin kinini saxlayır. Lakin bütün ziddiyyətlərə baxmayaraq, mövqeləri uzlaşdırmaq imkansız deyil. 1974-cü ildə Türkiyə Kıbrısa hərbi müdaxilə edərkən də münasibətlərdə ciddi problem yaranmışdı, ABŞ Türkiyəyə silah embarqosu tətbiq etmişdi, Türkiyə isə ABŞ əsgərlərini İncirlik bazasında çıxarmışdı. Qısa müddət sonra münasibətləri bərpa etmək mümkün oldu. İndi də mümkündür. Son hadisələr də bunu göstərdi".

**Politoloq qeyd etdi ki, ABŞ Türkiyənin Suriyanın Afrin bölgəsinə hərbi müdaxilə etmək niyyətinə faktiki olaraq, etiraz etmədi:** "Mənim fikrimcə, Türkiyə bütün real və potensial təhlükələri sovuşdurmaq üçün hərbi və diplomatik addımlarla yanaşı, daxildə demokratiyanın, insan haqlarının səviyyəsini də yüksəltməlidir. Türkiyənin, öz Ana Yasasında əksini tapdığı kimi, həqiqi mənada demokratik, dünyəvi, sosial hüquq dövlətinə çevrilməsi onun bölünməzliyinin başlıca təminatı olardı. ABŞ-Rusiya münasibətlərinə gəldikdə isə burada ABŞ-Türkiyə münasibətlərindən fərqli durum mövcuddur".

**Şimal qonşumuza gəldikdə, Ş.Cəfərli xatırlatdı ki, Rusiya ABŞ-ın dostu və müttəfiqi yox, rəqibidir:** "Problemlər buradan başladı ki, Vladimir Putin iqtidarını möhkəmləndirdikdən sonra ölkəsinin oynadığı beynəlxalq rol, yaxud başqa sözlə, ölkəsinə biçilən beynəlxalq rolla razılaşmadı. Putin SSRİ-nin dağılmasını Rusiya üçün XX əsrin ən böyük geosiyasi fəlakəti kimi qiymətləndirərək itirilən mövqelərin heç olmasa bir qismini geri qaytarmaq cəhdlərinə başladı və Gürcüstan, Ukrayna hadisələri bunun nəticəsində baş verdi. ABŞ isə Putinin bu cəhdini 2-ci Dünya Müharibəsindən sonra formalaşmış və SSRİ-nin dağılmasından sonra müəyyən redaktələrlə Qərbin hegemonluğu altında davam etdirilən dünya düzəninə və razılaşdırılmış oyun qaydalarına ziddi hərəkət kimi qiymətləndirərək "soyuq müharibə" dövründə olduğu kimi, Rusiyanı dayandırmaq, çəkindirmək siyasətinə geri döndü. Sanksiyalar, NATO-nun dirçəldilməsi, NATO hərbi infrastrukturunun Rusiya sərhədlərində qurulmağa başlanması bu siyasətdən irəli gəlir. Sadə dildə desək, ABŞ Rusiyanı zəifləməyə çalışır, istəmir ki, Rusiya ona meydan oxuyacaq gücdə olsun. Lakin bu, heç də o demək deyil ki, ABŞ Rusiyanı dağıtmaq istəyir. Rusiya kimi nəhəng ölkəni dağıtmaq asan iş deyil və mən Vaşinqtonda hər hansı ciddi siyasətçinin və ya strateqin bu avantürist ideya ilə yaşadığına inanmıram. Rusiya dağılsa, orada yaranacaq xaosa kim cavabdeh olacaq, hadisələrə kim nəzarət edəcək? Rusiyanın böyük hərbi gücünün, raketlərinin, nüvə başlıqlarının taleyi necə olacaq? Şimali Qafqazda dirçəlməyə və çiçəklənməyə başlayacaq terrorizmin qarşısını kim alacaq? ABŞ belə bur durumun yaranmasını arzulayarmı? Məncə, yox".

**Digər qonşumuzla bağlı duruma gəldikdə, politoloq dedi ki, ABŞ-ın İranla bağlı siyasəti də müəyyən mənada Rusiya ilə bağlı yeritdiyi siyasətə bənzəyir:** "Lakin bir məqamı mütləq göz önündə tutmaq lazımdır ki, Vaşinqtonda İrana münasibətdə heç də vahid baxış, yekdil siyasət yoxdur. ABŞ-ın liberal çevrələri ilə mühafizəkarların radikal hissəsinin mövqeləri bu məsələdə haçalanır. Liberallar İranı təcrid etmək əvəzinə, onu dialoqa və əməkdaşlığa cəlb etməyin tərəfdarıdır. Onlar inanır ki, bu siyasət aparılsa, zamanla İran dövləti içəridən dəyişə, yumşala və islahatlara gedə bilər. Obama dövründə bu siyasət aparılırdı. Tramp isə bu məsələdə radikal yevangelistlərin və xristian sionistlərin mövqeyini bölüşür. Onlar İranı ABŞ-ın bölgə maraqlarına və İsrailin mövcudiyyətinə real təhlükə sayırlar və bu ölkənin nüvə silahı yaratmaq niyyətindən əl çəkmədiyini bildirərək onu zərərsizləşdirməyin zəruriliyini vurğulayırlar. Lakin necə və hansı yolla? Bu, qeyri-müəyyəndir. Aydın olan budur ki, həmin çevrələr İranda rejim dəyişikliyinə nail olmağı və Tehranda ABŞ-a, İsrailə düşmən olmayacaq bir rejimin formalaşmasını hədəfləyir. İranın bölünməsi onların planlarında, düşüncələrində varmı? Açığı, bu barədə dəqiq məlumatım yoxdur, amma bunu istisna etmək istəməzdim. Sonda bir məqamı da qeyd edim ki, ABŞ-ın gücünü həddən artıq şişirtmək lazım deyil. ABŞ-ın da gücünün sərhədi, limiti var".

**❑ Cavid TURAN**

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

**Xəbər verdiyimiz kimi, Bolqarıstan Respublikasının baş naziri Boyko Borisovun Azərbaycan Respublikasına işgüzar səfəri yanvarın 16-da başa çatıb.**

# Bolqarıstanın baş nazirindən ictimaiyyətə şəffaflıq örnəyi

## Borisov Bakı səfərindən facebookda canlı video, səmimi fotolar paylaşdı və.... bizimkilərə də nümunə oldu



Bolqarıstanın baş naziri Boyko Borisovu hava limanında Azərbaycanın baş naziri Artur Rasi-zadə və digər rəsmi şəxslər yola salıblar.

Amma baş nazir ölkəmizdə olduğu müddətdə xeyli maraqlı xəbər və görüntülərə səbəb olub. O, facebook sosial şəbəkəsində aktiv olduğu üçün demək olar ki, görüşün hər bir məqamı ilə bağlı xəbərlər paylaşıb. İlginc foto və videoların müşayiəti ilə edilən paylaşımlar isə Azərbaycan mediasına da xeyli mövzu verib.

Onlardan birincisi Boyko Borisovun azərbaycanlı həmkarı Artur Rasi-zadə ilə Bakıdan Sofiyaya uçan ilk birbaşa aviareysin açılışında iştirak etməsi ilə bağlı yayılan videoda özünü göstərib. Çox güman ki, B.Borisovun köməkçilərindən birinin çəkib paylaşdığı canlı videoda baş nazirlər görüş zamanı bir-biri ilə zarafatlaşıblar. Borisov uçuşun nə zaman başlayacağını soruşub. Rasi-zadə isə cavabında "bilmirəm, mən özüm də burada qonağam" deyib. Videoda eyni zamanda A.Rəsizadənin görüşü bitirmək üçün tələsdiyi, yardımçılarından bu haqda səbirsizliklə soruşduğu da öz əksini tapıb. Amma bu məqamda bolqar jurnalistlərdən birinin baş nazirlərlə selfi çəkdirmək istəyi onları orada bir qədər də ləngidib.

Daha bir maraqlı foto isə Azərbaycan prezidenti İlham Əliyevlə baş nazir B.Borisovun maşında çəkilən fotosudur. Prezident sükan arxasındadır, baş nazir isə onun yanında, qabaq oturacaqda əyləşib və ikisi də gülümsünürlər. Bu fotonu da bolqar baş nazir özünün facebook səhifəsində paylaşıb.

Yeri gəlmişkən, Azərbaycan prezidenti İlham Əliyevin də facebook səhifəsi var və orada onun da səmimi fotolar paylaşması ənənəsi mövcuddur.

**B.Borisov eyni zamanda facebook səhifəsində Azərbaycan prezidenti ilə işgüzar bir fotosunu da paylaşaraq aşağıdakıları yazıb:** "Sofiya ilə Bakı arasında birbaşa əlaqə biznesin, turizmin inkişafına və Bolqarıstanla Azərbaycan arasında əlaqələrin genişləndirilməsinə dəstək olacaq. Xalqlarımız arasında sevgi çoxdur".

Bu, bu günə qədər azərbaycanlı jurnalistlərin nadir hallarda gördüyü hallardandır. Baş nazir səviyyəsində bir şəxsin işgüzar görüşün bəzi detallarını foto və videoların müşayiəti ilə sosial şəbəkədən paylaşması, ictimaiyyətə bu formada açıq olması müsbət tendensiyadır. Hətta azərbaycanlı həmkarı Artur Rasi-zadənin də zarafatlarının, zaman-zaman pərdəarxası replikalarının, jestlərinin öz əksini tapdığı videoların anındaca ictimaiyyətlə paylaşılması xüsusən media nümayəndələri üçün elədüşməz bir fürsətdir.



Ümid edirik ki, bolqar baş nazirin bu nümunəsi Azərbaycan məmurlarına da örnək olar və onlar ictimaiyyətin xəbər tutmaq istədiyi məqamları sosial şəbəkə vasitəsilə paylaşarlar. Bu hal göstərdi ki, əslində mediadan çəkinəcək hər hansı bir səbəb yoxdur. İşgüzar və ya qeyri-işgüzar görüşdən mümkün olan foto-videoları paylaşmaqla əslində informasiya buzunu qırmaq olar. Bu isə ancaq və ancaq müsbət təəssürat yaradır.

❑ **Sevinc TELMANQIZI**
❑ **"Yeni Müsavat"**

# Trampın psixoloji problemi olmadığı elan edildi, amma şübhələr çəkilmədi - ilginc rəylər

## Amerika tarixində bir çox prezidentlərin xəstəliyi gizlədilib, onlardan 10-u hətta ölkəni idarə etmək qabiliyyətində olmayıb...

**Ağ Evin həkimi prezident Donald Trampın əla sağlamlığa malik olduğunu deyib. Keçən həftə 71 yaşlı prezident bu postda ilk dəfə tibbi müayinədən keçib və məlum olub ki, o, sap-sağlamdır. Bu, bütün dünyanın maraqla gözlədiyi rəylərdən biri idi. Çünki hakimiyyətə gəldiyi ilk gündən etibarən onun səhhətində, xüsusən də psixoloji durumunda problemlər olduğu ilə bağlı fikirlər vardı.**

Özü də bunu sıradan insanlar yox, ciddi ekspertlər açıqlayıblar. Məsələn, "Washington Post" qəzeti prezidentin sağlamlığında psixoloji cəhətdən ciddi problemlərin olduğunu bildirib. Bu barədə yazan köşə yazarı Cenifer Robin "Bu prezidentin psixoloji cəhətdən ciddi problemləri var. O, etimad olunası insan deyil və ciddi problemlərlə üzləşiləcək. Bu məsələ çox ziyanlıdır. Problem burdadır ki, prezidentimiz qalmaqal yaradır və terrorçuların hücumuna məruz qalan şəhərin (Londonun) merinə hücum etmək fürsətindən istifadə edir. O, dünyanın ən pis insanıdır. Tramp adətən Ağ Evin nəzarət etdiyi məlumatların 180 dərəcə əksini deyir", - deyə bildirib.

**Ötən ilin oktyabrında da ABŞ-ın bir qrup psixoloqu Nyu-Yorkda aksiya keçirərək bu ölkə prezidentinin kənarlaşdırılmasını istəyib. Kornel Universitetinin psixoloqu Herri Siqal aksiya zamanı deyib:** "Zəiflik və dəyərsiz emosiyasından qaynaqlanan Trampın gizli qorxusunu onun hər hansı tənqid qarşısında müqavimət metodunu dərk etmək mümkündür". **Başqa bir psixoloq Mişel Qoland "Nyu-York Post"a deyib:** "Tramp heç nədən vaz keçmir və ölkə onun narsist şəxsiyyətindən əziyyət çəkir".

"The Duty to Warn PAC" adlı qrup 100-dən çox psixoloq və səhiyyə ekspertindən ibarətdir. Bu qrup ABŞ-da aksiyalar təşkil etməklə Trampın psixoloji problemləri haqda xəbərdarlıq etməyə çalışır. "Nyu-York Post"un məlumatına görə, bu qrupun qənaətincə, Trampın psixi vəziyyəti elə bir durumdadır ki, o, nüvə müharibəsini başlada bilər. Ötən il ölkənin Yel (Yale) Universitetində toplanan psixoloqlar Trampın təhlükəli xəstəliyə qapıldığını və prezidentliyə yararlı olmadığını söyləyiblər.

**Doktor Con Qartner deyib:** "Bizim əxlaqi borcumuzdur ki, xalqımıza Trampın psixoloji problemləri barədə məlumat verək. O, paranoya xəstəliyinə qapılıb və bunu seçildiyi ilk gün sübut edir".



**Rusiyanın korparativ kəşfiyyat mütəxəssisi Yelena Larina isə "Komsomolskaya Pravda"ya deyib ki, hamıda olduğu kimi Trampda da uşaqlıq dövrünün gərginlikləri şəxsiyyətə təsir edib.** "Tramp ailəsinin ögey münasibət gördüyü doğmalarındandır. Anası kiçik qardaşını, atası isə böyüyünü əzizlərmiş. Donald isə diqqət azlığından əziyyət çəkirmiş. Donald dərslərini zəif oxuyur, pis vərdişlərə qurşanıbmış. Amma yenə missiz və mister Tramplar uşağın vəziyyəti ilə maraqlanmırmışlar. Özbaşına böyüyən Donaldı o vaxtkı Vyetnam müharibəsinə də aparmayıblar. Bioqrafiyasında buna səbəb dabanındakı sümükləşmə göstərilsə də, əslində məktəbdə özünü pis aparmağı, sinif yoldaşlarına qarşı daim aqressiv olması səbəb olub", - deyə o qeyd edib.

**Öz növbəsində Oksford Universitetinin psixoloqu Kevin Datton deyir ki, Trampda psixoloji çatışmazlıqlar Hitlerdən daha çoxdur:** "Hitlerdə çılğınlıq göstəricisi 169 dərəcə olubsa, Trampda 171-dir". Harvard Universitetinin professoru Hovard Hardner isə əmindir ki, Tramp narsisizmdən əziyyət çəkir və cəmiyyət üçün təhlükəli adamdır. Onda narsisizmin ən dəhşətli əlaməti var: empatiya əskikliyi, yəni insanların halına acımamaq, özü etdiyi səhvdən peşman olmamaq.

Həmçinin mütəxəssislər onun danışdığı yalan dərəcəsini də ölçüblər. Belə məlum olub ki, Tramp çıxış və müsahibələrinin birində yalnız 4%, digərində 12%, başqa birində isə 14% həqiqəti danışıb. Yerdə qalan nitqi tamamilə absurd və yanlışdır. Bildirilir ki, Amerikanın ondan əvvəlki 44 prezidentinin heç biri bu qədər yalan danışmayıb. Yəni Tramp yalan danışmaqda rekord vurur. Amma psixoloqlar xəbərdarlıq edirlər ki, dəli olmaq axmaq olmaq deyil. Trampın hiyləgər idarəçiliyini qiymətləndirməyən özünə ziyan etmiş olar. Amma Tramp çıxışlarının birində bir həqiqəti söyləyib ki, o da bütün yalanlarına dəyər. Adam açıq-aydın bildirirdi ki, Amerika bütün ölkələrdən üstündür, onun xalqı da alidir (burda Hitlerlik damarı tutub). Başqa sözlə, Tramp qlobalist yox, imperialistdir.

Gördüyünüz kimi, bir tərəfdə onlarla həkim, psixoloq və ekspertin rəyi, digər tərəfdə isə Ağ Evin həkimi Ronny Jacksonun dedikləri. Hansı daha inandırıcı və etibarlıdır? "Yeni Müsavat" azərbaycanlı ekspertlərdən də bu məsələ ilə bağlı rəy öyrənib.

**Psixiatr Orxan Fərəcli müşahidələrinə əsasən, onda hər hansı psixi pozğunluq olmaması ilə bağlı qənaətini bölüşdü. Dedi ki, sadəcə, ABŞ prezidentinin davranışlarında özünəməxsusluq var ki, bu da bir çox hallarda insanlara qəribə görünür:** "Davranışlarını müşahidə edərkən belə qənaətə gəlmək olur ki, o, sadəcə, emosinaldır və etik məqamları nəzərə almır. Bu isə xarakter cəhətidir, psixoloji pozuntu sayıla bilməz. Amma mən onunla bağlı bir məlumatı oxumuşdum ki, onda tez-tez əllərini yuma, salfetdən istifadə etmə vərdişi var. Bu, obsetiv pozuntuya uyğun gələn və bir çox adamda özünü göstərən haldır. 3-4 saatdan bir insanın əllərini yuması, yaş salfetlə silməsi normal hal kimi qəbul olunur".

Daha bir rəy Trampın psixoloji problemi olmadığını yönündə oldu. Amma bu günə qədər səhhətində problem olan və amerikalı həkimlər tərəfindən bu problemin gizlədildiyi bir çox prezidentlər olub. "Yeni Müsavat" bu şəxsləri, eləcə də onların xəstəlik tarixçəsini xatırlatmaqla bir paraleli nəzərə çatdırır.

**Başlayaq Franklin Ruzveltdən.** Keçmişdə Amerika prezidentlərinin narahatlıqlarının yanlış diaqnoz edildiyi və ya gizləndiyi dönəmlər olub. Uşaq yaşlarında keçirdiyi uşaq iflicinə görə çətinliklər yaşayan Franklin Ruzvelt onlardan biridir. 39 yaşından sonra dəstək olmadan yeriyə bilmirdi. 4 dönəm prezidentlik edən Ruzvelt özəl həyatında istifadə etsə də, cəmiyyətin qabağına təkərli araba ilə çıxmadı. Bu vəziyyətdən onunla üz-üzə görüşən dünya liderləri də xəbərdar idi. Yüksək təzyiqinin və ürəyindəki problemlərin artdığı son dönəmdəki namizədliyini isə xalqdan gizlətdi. Vəzifə müddətini tamamlaya bilmədən ürək çatışmazlığından öldü.

**Ronald Reyqan:** Trampdan öncə ən yaşlı prezident idi. 69 yaşında prezident olan Reyqan "Səhhətim pozularsa, vəzifədən gedərəm" demişdi. Ailəsində alzheimer vardı. Onun da prezidentlikdən getdikdən 6 ay sonra alzheimer olduğu açıqlandı. Vəzifədə ikən bu problemi yaşadığına dair konkret bir sübut ortaya çıxmasa da, mövzu hər zaman müzakirə olundu.

**Grover Cleveland:** O da 1893-cü ildə keçirdiyi xərçəng əməliyyatını gizlətmişdi. Ağzındakı bir şişin götürülməsi üçün ailə dostu olan cərrah və heyətinin yanında əməliyyatı gerçəkləşdirilmişdi. Əməliyyat 25 il boyunca ictimaiyyətdən gizlədilib.

**Con Kennedi:** Ən gənc prezidentlərdən olan Con Kennedi sağlam və gümrah bir prezident imici yaratmışdı. Amma Ağ Evə gəldiyi zaman hipotiroidi, bel ağrıları və Addison narahatlığı vardı. Ağrıları o qədər şiddətli idi ki, gizli servisin "Xəstəyə yaxşı təsir edən həkim" adlandırdığı Max Jacobson da tez-tez iynə vurmaq üçün Ağ Evə çağırılırdı.

Amerika cəmiyyətinin haqqında danışdığı 2006 tarixli bir arayış da var. Süzgədən arayışa görə, Amerikanın ilk 37 prezidentindən 18-də psixiatrik problemlər olub. Bir çoxunun problemləri depressiya ilə bağlı idi. Araşdırmaya görə, əslində 18 prezidentdən 10-u zehni problemə görə ölkəni idarə edə bilməyəcək durumda olub.

❑ **Sevinc TELMANQIZI**

# Bu gün "k" hərfini keçdik



Zamin HACI
zaminhaci@gmail.com

**"Alt şalvardan imtina elədi, xırıltılı bağırtıyla etirazını bildirdi: "Növbəyə durun, qancıq balaları, növbəyə!" Geyindirdik. Corabları böyük gəldi".**

*(Bulqakov, "İt ürəyi")*

**Yenə də orfoqrafiya qaydaları aktualdır. Heç gündəmdən düşmür. Təbii yanaşmalıyıq. Misal üçün, ingilislər bəzi səsləri üç dənə hərflə yazırlar, o dərəcədə bərbad əlifbaları vardır. Kiminsə vecinədirmi? Yox. Bizim dildə isə qaydalara uyğun yazıb-pozmaq, ümumiyyətlə, orfoqrafiyanın kamilliyi çox önəmlidir. Çünki biz dünya lideriyik, bütün Qafqazın şeyxiyik, Avrasiyanın körpüsüyük, planetin multikulturistiyik, kainatın da kosmos idarəsiyik (axırıncını axırda yazaram, yoxsa bura havadan girmədi). Azərbaycan dilində düzgün yazmasan kompüter serverləri çalışmaz, hətta bəlkə nüvə raketləri öz-özünə işə düşüb cahanı kullən-kuf edər. Əstəgfürillah. Ya da firillah - dədiq bilmirəm. Ərəbcədir, kimə lazımdır ki?**

Orfoqrafiya Nazirliyindən gələn təzə fərmanda çox maraqlıdır ki, iki sözün başı ağrıyıbdır: əsgər və alqı-satqı. Deyir indən belə bunları əskər və alğı satqı yazmalıyıq. Məncə, burada qəhrəman ordumuzu alver predmetinə çevirmək cəhdləri görünməkdədir. Nəsə ermeni barmağı vardır. Yoxsa niyə bu iki sözü yanaşı qoyublar? Ayıb olsun.

Başqa müsbət yeniliklərdən Rüşvət, Qohumbazlıq, İşgəncə, Oğurluq, Qanunsuzluq, Ofşor və Şirkət sözlərinin böyük hərflə yazılmasının vacibliyi, xalq, millət, vətən, ədalət, insaf, vicdan, qeyrət sözlərinin isə mikroskopik yazılması qərarını məmnuniyyətlə qeyd eləyə bilərik. Yəni, ikincilər indiyəcən kiçik hərflə də olsa yazılırdı və insanlar oxuyub dilxor olurdular. Daha qanunla nanohərflər şəklində yazılacaqlar. Misal üçün, "insan hüquqları" ifadəsini oxumaq sənə-mənə-ona-bizə çoxmu vacibdir? Bu bizim nəyimizə lazımdır? Hökumət özü oxuyur, bəsimizdir. Mikroskop hökumətin əlində olacaqdır. Biz zəhmətkeşlər isə hansısa mətndə boşluq görəndə orada hansı yaxşı sözün olmasını zənn etməliyik. Fəhmlə tapmalıyıq. Yeri gəlmişkən, ərəb əlifbasında elə təxminən bu cürdür. Samitləri yazırlar, saitləri özün tapmalısan. Füzulinin bu temada şeirləri də vardır:

***"Qələm olsun əli ol katibi-bədtəhririn***
***Ki, fəsadi-rəqəmi sözümüzü şur eylər.***
***Gah bir hərf süqutilə qılur nadiri nar,***
***Gah bir nöqtə qüsurilə gözü kur eylər".***

Hərçənd yaxşı olar bu təzə qanunları camaata başa salmağı da polisə tapşıraq. Ver serjantın əlinə dubinkanı, orfoqrafiyanı millətin əlinə döyə-döyə öyrətsin. Bizim bu işdə ən yaxşı öyrətməniniz hüquq-mühafizə orqanları olacaqdır. Məncə Dövlət Orfoqrafiya Nazirliyinə (DON) silah daşımaq hüququ da verilməlidir.

Bu arada başımız düzgün yazmağa qarışdı, ciddi bir struktur islahatı diqqətdən qıraqda qaldı. Nazirlər Kabineti "Azərkosmos" idarəsini Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeçiliyindən çıxarıb müstəqilliyini elan etmişdir. Məncə, olduqca mühüm, uğurlu addımdır. Çünki kosmosun fəthini, göydə şırımlar açan raketlərimizin taleyini korrupsioner imicli bir idarəyə tapşırmaq düzgün deyildi. Yada salın köhnə rabitəçiləri. Çekistlərlə əlbir olub ona-buna qanunsuz qulaq asırdılar, xərcləri şişirdib dövlət əmlakını talayırdılar, bəzən reketlik edirdilər. Kim bilir, bəlkə də o çağlar bizim kosmos idarəmiz də marsiançiklərin özəl həyatı haqda gizli kasetlər çəkib başqa planetlərdə satırdı. Yadplanetliləri şantaj edib çirkli vəsaitlər qazanırdılar. Ar olsun. Təki vətən yaşasın!

İndi söz əlaqədar... Yeri gəlmişkən, idarədən xahiş edirəm, buna da bir əncam çəksin və mümkünsə "əlaqədar" sözünü lüğətimizdən rədd etsin. Həm dilimizin ahəng qanununa uyğun olmayan yabançı sözdür, həm də artıqdır. Özünüz baxın: "İndi söz təşkilatlarındır". Necə gözəl səslənir. Əlaqədar yazmağın mənası varmı? Onsuz da millət gözəl anlayır ki, təşkilat varsa o, mütləq əlaqədar olur.

# Rusiya və ABŞ-ın daha bir rəqabət meydanı

**Sabah - yanvarın 19-da İrəvanda bahalıq əleyhinə kütləvi etiraz nümayişləri start götürəcək. "Yeni Müsavat"ın artıq xəbər verdiyi kimi, parlamentdəki "Yelk" müxalif blokun təşəbbüsü ilə təşkil olunacaq yürüş-mitinqlərin qısa müddətdə daha geniş sosial təbəqələri əhatə edəcəyi gözlənilir.**




## Ermənistan üçün "qiy(a)mət günü" - kritik ana bir gün qaldı...

İşğalçı ölkədə sabah bahalaşma əleyhinə kütləvi etirazlar başlayır; Ermənistan böyük güclərin diqqətində; ABŞ səfiri Müdafiə Nazirliyinə getdi - səbəb; **amerikalı nüfuzlu analitik isə İrəvanı sanksiyalar barədə xəbərdar etdi:** "Ermənistan Rusiyanın koloniyası kimi qaldıqca..."

Şübhə yox ki, hakimiyyət də vəziyyətin fərqindədir. Prezident Serj Sərkisyanın yanvarın 10-da keçirdiyi müşavirə, yanvarın 23-də isə parlamentdə bahalaşma ilə bağlı müzakirələrin təyin olunması məhz situasiyanı yumşaltmağa, əhalini sakitləşdirməyə hesablanmış siyasi gedişlər hesab olunur.

*****

Prosesləri Ermənistanda, bütövlükdə bölgədə marağı olan böyük güclər, ələlxüsus hazırda bir-biri ilə sərt konfrontasiya durumunda olan Rusiya və ABŞ da diqqətlə izləyir. Sözsüz ki, Moskva Ermənistanda bəlli səbəblərdən daha güclü təsir rıçaqlarına malikdir, nəinki Amerika. Lakin Vaşinqton da mürgü vurmur və öz "təsir agentləri" vasitəsilə Kremlin güclü olduğu Ermənistanın ictimai rəyini yönəltməyə çalışır.

Vəziyyəti dramatikləşdirən ciddi amillərdən biri də Ermənistanın parlamentli üsul-idarəyə keçidi ilə bağlı apreldə gözlənilən yeni prezident və baş nazir seçkiləridir. Bu seçkilər parlament çərçivəsində planlaşdırılsa da konstitusion əhəmiyyət daşıdığından və hakim rejimin taleyi ilə birbaşa bağlı olduğundan, daha dəqiqi, indiki prezidentin baş nazirliyə yiyələnməklə hakimiyyətinin ömrünü uzatmaq niyyətini gizlətməyindən, habelə dünya erməni lobbisi bu planlara qarşı olduğundan, ölkədə siyasi ehtiraslar az qala, günbəgün artmaqdadır.

Bir yandan da yanvarın 1-dən ölkədə gündəlik tələbat mallarının, benzinin, maye qazın bahalaşması siyasi qüvvələr arasında rəqabətə özünəməxsus kəskinlik verir. Bu xüsusda İrəvanın 19 yanvarı "qiymət günü"ndən daha çox, Ermənistan üçün "qiyamət günü"nün başlanğıcı kimi tarixə düşə bilər. Vəziyyəti nəzarətdə saxlamaq üçün isə kriminal Sərkisyan rejiminin ən radikal üsullara əl atması təcrübəsi də var. Söhbət 2008-ci il martın 1-də İrəvanda dinc etirazçıların ordu qüvvələri ilə güllələbaran edilməsindən gedir. O zaman 8 nümayişçi həlak olmuşdu.

*****

Maraqlıdır ki, baş verənlər fonunda dünən ABŞ-ın işğalçı ölkədəki səfiri Riçard Millz Ermənistanın müdafiə naziri Viqen Sərkisyanla görüşmək üçün Müdafiə Nazirliyinə gedib. "Yeni Müsavat" erməni qaynaqlarına istinadən xəbər verdir ki, rəsmi mənbələr tərəflər arasında 2018-ci ildə ortaq müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq məsələlərinin müzakirə ediblər. "2018-ci ildə İrəvanda hərbi məsləhətləşmələr aparmaq haqda razılığa gəlinib. Görüş zamanı habelə regional təhlükəsizliklə bağlı məsələlər müzakirə edilib", - məlumatda qeyd olunur.

Lakin yerli və əcnəbi müşahidəçilər görüşün pərdəarxası başqa məqamlarına diqqət çəkiblər. Məsələn, belə bir məqam ki, Viqen Sərkisyanın adı da yeni prezidentliyə namizədlər sırasında çəkilir. Lakin səfirin bu görüşü Vigen Sərkisyana dəstəkdən daha çox, fikrimizcə, gözlənilən qarışıqlıq və kütləvi etirazlar zamanı ordunun dinc proseslərə müdaxilə edib-etməməsi, bir növ 2008-ci ilin qanlı mart olaylarının təkrarlanmaması məsələsi ilə bağlı ola bilərdi. ABŞ sözsüz ki, belə müdaxilələrə qarşıdır.

Erməni politoloqlardan birinə görə, səfir Maylzın Müdafiə Nazirliyinə gəlişi həm də təhlükəsizliklə bağlı hakimiyyətə ünvanlı mesaj xarakteri daşıya bilər.

******

ABŞ-dakı "Jane's Intelligence" analitik mərkəzinin aparıcı eksperti Lilit Gevorkyan isə ümumiyyətlə, hesab edir ki, ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyası Ermənistan üçün ciddi problemdir, çünki onun fikrincə, Ermənistan Amerikanın qarşı durduğu bir düşərgədə yer alıb.

**"Yeni Müsavat"ın 1 in.am saytına istinadla verdiyi məlumata görə, öz növbəsində amerikalı nüfuzlu analitik, ABŞ Xarici Siyasət Şurasının aparıcı elmi əməkdaşı Stiven Blank hədələyici tonda deyib ki, Ermənistan ABŞ-Rusiya münasibətlərində öz mövqeyini dəyişməlidir:** "Ona görə ki, Moskva Ermənistanı özünün imperiya maraqlarının xidmətinə qoymaq və öz məqsədi naminə Dağlıq Qarabağ konfliktini saxlamaqdan savayı maraq güdmür. Ermənistan bu üzdən nəinki Amerika, həta Qərb sanksiyalarından əziyyət çəkə bilər. Böyük ehtimalla, Rusiyaya təzyiqlər artacaq. Nədən ki, Moskva öz anti-Amerika siyasətini davam etdirir, hər yerdə onun maraqları üçün təhdid yaradır".

**Stiven Blanka görə, Dağlıq Qarabağ probleminin həlli üçün ən əvvəl Vaşinqtonun səyləri və münaqişə tərəflərinin - Azərbaycan və Ermənistan rəhbərlərinin müdrik addımları vacibdir.** "Problem azərbaycanlılar və ermənilər tərəfindən həllini tapmalıdır, nəinki ruslar, amerikalılar və ya fransızlar hesabına. Lakin bu zaman Qərb vasitəçiləri də aktivlik göstərməlidir. Rusiya silahları ocağa yağ tökür. Fikrimcə, nizamlama prosesində xüsusən də ABŞ-ın vasitəçilik təşəbbüsləri, eyni zamanda iki münaqişə tərəfinin ağıllı siyasəti çox mühümdür. Məhz onlar öz xalqlarına izah eləməlidirlər ki, danışıqlarla nizamlama prosesindən nə gözlənilir. Bunlar olmasa, Ermənistan de-fakto Rusiyanın koloniyası və peyki kimi qalacaq", - deyə sonda analitik əlavə edib.

*****

Lakin məsələ də elə ondadır ki, erməni xalqı hələlik öz iradəsinin sahibi deyil və bu üzdən ölkədə indiyədək legitim hakimiyyət formalaşdıra bilməyib. Bəlkə bu dəfə tilsim sındı? Sabah başlayacaq etiraz aksiyaları bu yöndə kövrək də olsa ümidlər yaradır...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

**Ermənistanda iqtisadi problemlərin və prezident seçkilərinin yaxınlaşmasının təsiri ilə baş qaldıran gərginlik dərinləşir. Xalq etirazları açıq şəkildə özünü göstərməkdədir. Belə bir vəziyyətdə Ermənistan Milli Konqresi Partiyası Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı partiyanın lideri Levon Ter-Petrosyanın əvvəlki mövqeyini bir daha gündəmə gətirərək keçmiş prezidentin 2016-cı ilin dekabr ayının 17-də keçirilən partiya qurultayında münaqişənin həlli ilə bağlı irəli sürdüyü təklifi ən unikal variant hesab etdiyini bəyan eləyib.**

# Ermənistanda ara qarışsa və hakimiyyət dəyişsə.....

## Politoloq: “Ter-Petrosyan vəziyyəti düzgün qiymətləndirir; Ermənistanın xilas yolunu Dağlıq Qarabağ məsələsində güzəştə getməkdə və problemin həllinə nail olmaqda görür”

**Ter-Petrosyan** ölkəsindəki real vəziyyətdən çıxış edərək problemin mütləq həllini və kompromislərin zəruriliyini bir daha bəyan edib: “Təhlükəsizliyin təmini, iqtisadi inkişaf və Ermənistanda demoqrafik vəziyyəti yaxşılaşdırmaq üçün Qarabağ münaqişəsi həll olunmalı, eləcə də Türkiyə ilə münasibətlər normallaşmalıdır. Danışıqlar masasında faktiki olaraq 1997-ci ildəki güzəştli nizama salınma variantı mövcuddur. Əgər biz o zaman buna nail olsaydıq, bu illər ərzində çəkdiyimiz əzablar və itkilərlə qarşılaşmazdıq. Heyfslənirəm ki, mənim bəzi həmkarlarım bu sadə həqiqətləri vaxtında başa düşmədilər və biz münaqişənin həlli üçün ən əlverişli anı itirdik”.

**Levon Ter-Petrosyan daha sonra bildirib ki, Ermənistan hakimiyyətinin bir vəzifəsi var, bu da Qarabağ münaqişəsinin həllində kompromisə getməkdir:** “Əslində bir vəzifə var: Qarabağ probleminin həlli, bundan sonra erməni-türk münasibətləri öz-özünə nizamlanacaq. Qarabağ məsələsinin isə mərhələli həlldən başqa yolu mövcud deyil. Bu gün danışıqlar masası üzərində olan təklif faktiki olaraq 1997-ci ildəkinin eynidir: Qarabağa beynəlxalq səviyyədə tanınmış aralıq statusun verilməsi, əvəzində müəyyən ərazilərin qaytarılması, yekun status məsələsinin sonraya saxlanılması, sülhməramlı qüvvələrin yerləşdirilməsi”.

Levon Ter-Petrosyan buna qədər də bir neçə dəfə çıxışlarında Ermənistandakı siyasi, iqtisadi və sosial problemlərin həllinin Dağlıq Qarabağın Azərbaycana qaytarılmasından keçdiyini bildirib. Lakin müxalifət liderinin budəfəki çağırışı Ermənistanda Qarabağ münaqişəsi ətrafındakı situasiyanın təhlili və vəziyyətdən çıxış yolunun göstərilməsi baxımından ən güclü çağırış hesab olunur. Keçmiş prezident həmçinin elan edib ki, onun partiyası qarşıdakı seçkilərə “Sülh! Barışıq! Mehriban qonşuluq!” şüarı ilə gedir və bu çağırışları dəstəkləyən siyasi qüvvələrlə blok yaratmağa hazırdır.

Erməni Milli Konqresinin gündəmə gətirdiyi bu məsələnin geniş müzakirələr yaratdığı vaxt Ermənistan Statistika Komitəsinin yayımladığı hesabat ölkəni çalxalayıb. Komitənin hesabatında bildirilir ki, son 5 ildə 20 minə yaxın insan Qarabağ probleminə görə Ermənistan vətəndaşlığından imtina edərək xarici ölkələrə üz tutub. Qurum ermənilərin uzun illərdir həllsiz qalan Qarabağ münaqişəsinə görə yersiz ölmək istəmədiklərinə də diqqət çəkir. Başqa sözlə, Ermənistan müxalifəti və dövlət qurumlarının son zamanlarda ictimai rəydə yaratdığı fikir budur ki, Dağlıq Qarabağ Azərbaycana geri qaytarılmalıdır və ölkə hakimiyyətinin bundan başqa çıxış yolu yoxdur.



Qabil Hüseynli

Ermənistan isə get-gedə qarışmaqdadır. Vəziyyət bu şəkildə davam etsə, qarışıqlıq daha da böyük miqyas alacaq. Bəs Ermənistandakı qarışıqlıqdan Azərbaycanın udacağı nələrsə varmı? İşğalçı ölkədə hansı siyasi qüvvənin iqtidara gəlməsi Dağlıq Qarabağ məsələsinin həllində bu ölkənin mövqeyində müsbət dönüşə səbəb ola bilər?

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a bildirdi ki, Ermənistanda narazılıqların artması daha bir neçə ciddi səbəblə bağlıdır. Onlardan birincisi iqtisadi səbəbdir. Ölkədə inflyasiya iki rəqəmlə ölçülür və daha da böyüyür. Buna rəğmən əməkhaqları uzun müddətdir ki, artırılmır. Üstəlik, ərzaq məhsulları da bahalaşır. Artıq erməni əhalisinin aldığı maaş onun güzəranını minimal səviyyədə də təmin etməyə yetmir. Son 10 gündə əhalinin qəzəbinin ilkin işartıları olan lokal etiraz aksiyaları baş verib. Ölkədə müxalifət bu prosesi ciddi surətdə izləyir. Əhalinin artan sosial etirazlarını vahid bir məcraya yönəltməyə çalışır:** “Müxalifət qüvvələrinin bir hissəsi əhaliyə müraciət edərək onları ölkədəki dözülməz iqtisadi vəziyyətə etiraz etməyə çağırdı. Əhali də bir sözə bənd imiş kimi İrəvanda bu çağırışa qoşulmağa başladı. Proseslərə sanki bir təkan verilib və proses yavaş-yavaş İrəvan hüdudlarından çıxaraq digər şəhərlərə də yayılmaqdadır. Yəni Ermənistanda bir milli etiraz kampaniyasının formalaşması gedir. Zənnimcə, bu proseslərin belə qızışmasına təsir göstərən aparıcı element iqtisadi amillər olsa da həm də siyasi amillər də təsirini göstərir. Son dövrlərdə siyasi elitada hakimiyyət uğrunda mübarizənin kəskinləşdiyinin şahidi olmaqdayıq. Bu, xüsusilə Serj Sərkisyanla baş nazir Karen Karapetyan arasında özünü aydın göstərir. Sərkisyan açıq büruzə verir ki, o baş nazir olmaq niyyətindədir. Hətta o, özünə uyğun gələn prezident axtarışına da çıxıb. Mart ayında keçiriləcək prezident seçkilərində məhz özünə uyğun olan adamı prezident kürsüsünə əyləşdirmək fikrindədir. 20 ilə yaxındır Qarabağ klanının təzyiqi altında yaşayan yerli ermənilər Serj Sərkisyanın bu addımına dözmək niyyətində deyillər. Müxalifətin müəyyən hissələri də bu situasiyadan istifadə edərək Qarabağ klanına qarşı Ermənistan xalqını mübarizəyə qaldırmağa çalışırlar. Bütün bu amillər ölkədə vəziyyəti gərginləşdirməkdədir. Ermənistanda qarışıqlığın fonunda əlbəttə ki, bu ölkə Qarabağ məsələsində müəyyən güzəştlərə gedə bilər. Amma yenə də çalışacaqlar ki, bunu siyasi manevr olaraq etsinlər”.

**Politoloq Ermənistanda getdikcə güclənən xalq etirazlarını hakimiyyətin bu dəfə Qarabağ məsələsini ortaya atmaqla səngidə biləcəyinə inanmır:** “Xalqın əsas məqsədi Sərkisyanın indiyədək yeritdiyi siyasətə yox demək və onun ölkə hakimiyyətindən uzaqlaşdırılmasına nail olmaqdır. Belə görünür ki, Sərkisyanın partiyası hökuməti təkbaşına formalaşdıra bilməyəcək. Ölkə partlayış ərəfəsindədir. Buradan belə qənaət hasil olur ki, Ermənistanda hakimiyyət dəyişikliyi, yeni siyasi simaların hakimiyyətə gəlməsi kifayət qədər real görünür. Güman edirəm ki, Ermənistan daha da qarışarsa və Sərkisyan başda olmaqla, komandası hakimiyyətdən gedərsə, bu, Ermənistan əhalisi üçün, həm də Qarabağ danışıqları üçün nisbətən pozitiv zəmin hazırlaya bilər. Status-kvonun bu cür davam etməsindən Ermənistan əhalisi bezib. Onlar, nəhayət, Dağlıq Qarabağ probleminin hər hansı formada həllini gözləyirlər və bundan sonra bölgədəki böyük iqtisadi layihələrə qoşulub iqtisadi inkişaf yoluna çıxmaq istəyirlər”.

**Politoloq hesab edir ki, keçmiş prezident Levon Ter-Petrosyan Ermənistanda hakimiyyətə gəlsə, Dağlıq Qarabağ probleminin həllində Ermənistanın konstruktiv mövqeyə gəlməsi istisna deyil:** “Ter-Petrosyanın hazırda liderlik etdiyi Milli Konqres Partiyasının ölkədə kifayət qədər nüfuzu var. Amma Milli Konqres Partiyasının və Ter-Petrosyanın təkbaşına seçkiləri udmaq şansı o qədər də mümkün görünmür. Keçmiş prezident və partiyası digər müxalif qüvvələrdən biri ilə, məsələn, keçmiş spiker Manukyanla ittifaq qurub seçkiyə qoşularsa, bu, onların hakimiyyətə gəlməsinə gətirib çıxarar. Hazırda Dağlıq Qarabağ məsələsi və Ermənistanın iqtisadi fəlakətdən çıxması məsələsində Levon Ter-Petrosyan qədər realist düşünən, vəziyyəti realist dəyərləndirən ikinci qüvvəyə rast gəlmək çox çətindir. Onun dünən verdiyi açıqlamadan da bir daha görünür ki, vəziyyəti düzgün qiymətləndirir və Ermənistanın xilas yolunun Dağlıq Qarabağ məsələsində güzəştə getməkdən və problemin həllinə nail olmaqdan ibarət olduğunu görür”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

## “BMT baş katibinin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair çağırışını təqdir edirik” - Azərbaycan XİN

**“BMT-nin baş katibi Antoni Quterreş tərəfindən BMT Baş Assambleyasının 16 yanvar tarixli qeyri-rəsmi iclasında Avropada mövcud olan münaqişələr sırasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun fəaliyyətinin canlandırılması üzrə çağırışını təqdir edir və dəstəkləyirik”.**



Bu barədə XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev BMT münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun fəaliyyətinin canlandırılması üzrə çağırışını APA-ya şərh edərkən deyib.

**H. Hacıyevin** sözlərinə görə, BMT baş katibi tərəfindən çox düzgün olaraq qeyd olunur ki, Avropada mövcud olan resurslar, imkanlar və təsisatların fonunda münaqişələrin həll edilməmiş qalmasına bəraət qazandırıla bilməz: “Avropada təhlükəsizliyin bölünməzliyi vahid prinsip kimi qəbul olunsa da, təəssüf ki, reallıq bundan tamamilə uzaqdır”.

XİN sözçüsü deyib ki, ötən əsrin 80-ci illərinin sonunda Azərbaycanın Dağlıq Qarabağ regionunda başlayan aqressiv erməni separatizmi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ölkəmizin ərazilərinin 20 faizinin işğalı və bir milyondan artıq azərbaycanlının qanlı etnik təmizlənməsi ilə nəticələnib: “BMT Nizamnaməsi, Helsinki Yekun Aktı ilə üzərinə götürdüyü öhdəliklərinə zidd şəkildə ATƏT-ə üzv ölkə olaraq Ermənistanın digər ATƏT üzvü Azərbaycanın ərazilərinin işğalını davam etdirməsi regional sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqda davam edir. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasına tələb etdiyi halda, Ermənistan buna məhəl qoymur. Ermənistanın bu kimi işğalçılıq siyasəti, güc tətbiq edərək ərazi əldə etmək cəhdləri XX əsrin 30-40-cı illərində Avropada baş qaldıran mənfur təcrübə ilə müqayisə oluna bilər”.

H. Hacıyev qeyd edib ki, Azərbaycan ATƏT-in Minsk Qrupunun həmsədrlərinin mandatını təşkil edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktı əsasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün həmsədrlər və beynəlxalq ictimaiyyətlə birgə səylərini davam etdirəcək.

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

# "Neftin bahalaşması islahatların dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır"

## Vüqar Bayramov: "Artan gəlirdən iqtisadiyyatın diversifikasiyası üçün yararlanmaq lazımdır"

**Dünya bazarında neftin qiymətindəki dəyişikliklər onun hasilatçısı olan ölkələrdə diqqətlə izlənir. Büdcəsi neftdən formalaşan, yaxud böyük mənada neftdən asılı olan ölkələr dünya bazarında qiymət enişindən ciddi zərər çəkirlər. Belə ölkələrdə böhran başlanır, maliyyə-bank sektoru, biznesdə ciddi problemlər yaşanır, işsizlik, inflyasiya artır, son nəticədə sadə vətəndaşlar da böyük çətinliklərlə üzləşirlər.**

Son illərin təcrübəsi göstərdi ki, neft ölkəsi olan, büdcəsinin böyük bir hissəsi neft gəlirləri hesabına formalaşan Azərbaycanda da qiymətlərin düşməsi əhalinin geniş təbəqələrinin həyat səviyyəsini ağırlaşdırır. Buna görə də əhali istər-istəməz dünya neft bazarındakı vəziyyətə, neftin qiymətinə maraq göstərir, dəyişiklikləri izləyir. Artıq bir aya yaxındır Azərbaycan neftinin qiyməti 70 dolların üstündədir. Neftin qiymətinin artması Azərbaycana nə verir? Bu qiymət səviyyəsi ölkəmiz üçün nə qədər əlverişlidir?



**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov hesab edir ki, neft ölkəsi olduğuna görə Azərbaycan üçün neftin dünya bazar qiymətinin yüksəlməsi vacibdir:** "Bu artım Azərbaycanın dövlət gəlirlərinin də artmasına gətirib çıxarır. Bu baxımdan, neftin qiymətinin artması bir tərəfdən ölkəyə daha çox valyuta daxil olmasına səbəb olur, digər tərəfdən isə dövlət büdcəsinin gəlir və xərcləmələrinə təsir göstərir. Büdcə daxilolmaları artır, gəlirlərin artıqlaması ilə icra olunmasına şərait yaradır. Düşünürəm ki, Azərbaycan üçün neftin dünya bazar qiymətinin artması dövlət gəlirlərinin artması deməkdir. Gəlirlərin çox olması ölkədə islahatların aparılması, dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır".

**Ekspert hesab edir ki, neftin qiymətinin yüksəlməsi Azərbaycanda qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən islahatlara təsir göstərməməlidir:** "Birmənalı şəkildə, Azərbaycanda iqtisadiyyatın diversifikasiyasına nail olunması istiqamətində islahatların davam etdirilməsinə ehtiyac var. Bu diversifikasiya Azərbaycan üçün olduqca vacibdir. Çünki iqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın aradan qaldırılması prioritet olaraq qalmaqdadır. Nəzərə almaq lazımdır ki, neftin qiyməti yüksək olsa da, bu vəziyyətin nə qədər uzun müddətə davam edəcəyini proqnozlaşdırmaq çox çətindir. 2014-cü ildə dünya bir neft şoku yaşadı. Bu isə ondan xəbər verir ki, istənilən zaman qlobal bazarda neftin qiymət azalmaları müşahidə oluna bilər. Bu baxımdan, neftin qiymət artımından iqtisadi islahatların davam etdirilməsi, diversifikasiya, qeyri-neft sektorunun inkişafı üçün islahatların davam tdirilməsi baxımından fayda - lanmaq lazımdır".

**Neftin qiymətindəki artımdan Azərbaycanın dövlət olaraq əldə etdiyi gəlirə düşən pay hamını maraqlandırır. V.Bayramovun sözlərinə görə, Azərbaycan dünya bazarına gündəlik olaraq 460 min barel neft çıxarır:** "Hər bareldə 5 dollar artım gündəlik olaraq 2,3 milyon dollar artıq vəsait deməkdir. Hasilatın pay bölgüsü sazişindəki bölgünü nəzərə aldıqda, bu, Azərbaycan dövlətinin gündəlik 1 milyard 725 milyon dollar artıq vəsait əldə etməsi deməkdir".

**❑ DÜNYA**
**"Yeni Müsavat"**

# İqtisadiyyatın "axsayan" tərəfi": qiymətli kağızlar bazarı

## Qiymətli kağızlar bazarının inkişafı üçün bazarda iştirak edən şirkətlərin və investorların sayının artması vacibdir

**2017-ci ildə Azərbaycanda bir çox sahələrlə yanaşı qiymətli kağızlar bazarı da inkişaf edib, 2,4 dəfə böyüyüb. Bakı Fond Birjasını (BFB) məlumatına görə, 2017-cı ilin yanvar-dekabr ayları ərzində BFB-də bütün alətlər üzrə keçirilən əqdlərin ümumi həcmi 13 milyard 618,5 milyon manat təşkil edib. Bu 2016-cı illə müqayisədə 2,4 dəfə artıqdır.**




Xatırladaq ki, 2016-cı ildə qiymətli kağızlar bazarının həcmi 5 696,1 milyon manat təşkil edib. 2017-ci ildə qiymətli kağızlar bazarında bağlanan əqdlər isə 1,8 dəfə artaraq 87 334 minə çatıb.

Ötən il qiymətli kağızlar bazarının böyük hissəsi 44,5%-i dövlət qiymətli kağızlarının, 43,5%-i törəmə maliyyə alətlərinin, 6,3%-i istiqraz bazarının, 5,2%-i səhm bazarının payına düşüb.

Ayrı-ayrı alətlərin dövriyyəsində ən böyük artım AMB-nin notlarında qeydə alınıb. 2017-də not buraxılışları 19 dəfə artaraq 5,2 milyard manatı keçib. Maliyyə Nazirliyinin dövlət istiqrazlarının həcmi 1,48 dəfə artaraq 839,4 milyon manata çatıb. Pay bazarı 6 dəfə artaraq 709,6 milyon manat olub.

2017-ci ildə Azərbaycanın qiymətli kağızlar bazarında REPO əməliyyatlarının həcmi 25 dəfə artaraq 2016-cı ildəki 2 milyon manatdan, 51,55 milyon manata çatıb. Artımın əsas səbəblərindən biri SOCAR istiqrazları ilə REPO əməliyyatlarının başlanmasıdır. 2017-ci ilin son iki ayında bu kağızlarla 12 milyon dollarlıq və ya təqribən 20 milyon manatlıq REPO əməliyyatı aparılıb.

Qeyd edək ki, il ərzində ən çox uğur qazanan qiymətli kağız məhz SOCAR istiqrazları olub . 2016-cı ilin oktyabrında 100 milyon dollar həcmində buraxılan istiqrazların nominal qiyməti 1.000 ABŞ dolları, illik gəlirliliyi 5% təşkil edib. SOCAR-ın ilk dəfə tətbiq etdiyi geri alım zəmanəti sayəsində istiqrazları istənilən vaxt satmaq mümkündür. Bu fakt SOCAR istiqrazlarına böyük marağı təmin edib və nəticədə, hazırda istiqrazlar Azərbaycanın qiymətli kağızlar bazarında ən çox alınan maliyyə alətidir. İstiqrazlara böyük maraq nəticəsində onların qiyməti artaraq, 1020-1026 dollara çatıb.

Bəs görəsən, hazırda qiymətli kağızlar bazarının çatışmazlıqları nələrdir ki, insanlar hələ də vəsaitlərini yastıq altında saxlamağa üstünlük verirlər? Bankların əmanətlərlə bağlı etibarı itirdiyi bir dövrdə qiymətli kağızlar bazarı nə üçün bu boşluğu doldura bilmir? Bunun üçün hansı addımların atılmasına ehtiyac var?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, Azərbaycanda qiymətli kağızlar bazarının inkişafına xeyli öncədən cəhdlər edilsə də, reallıqda hələlik bu bazarın tam olaraq formalaşdığını və inkişaf etdiyini demək çətindir:** "Son dövrlər biz qiymətli kağızlar bazarının oyunçularının sayının artdığını müşahidə edirik. Həm Maliyyə Nazirliyi, həm də Dövlət Neft Şirkəti öz qiymətli kağızlarını bazara çıxartdı. Amma bunlarla yanaşı, özəl sektorun da bazarda aktiv olması çox vacibdir. Dövlət Neft Şirkətinin bazara çıxartdığı qiymətli kağızlara tələbat böyük oldu. Ona görə ki, bu qiymətli kağızların dəyəri dollarla ifadə olunurdu. Banklarla müqayisədə ARDNŞ istiqrazlara daha yüksək divident təklif edirdi. Sığortalanan əmanətlərin faizi 3 faiz olsa belə, əksər banklarda dollarla olan əmanətlərin faizi 0,5-1 faiz arasında dəyişir. Ancaq Dövlət Neft Şirkətinin qiymətli kağızlara 5 faiz divident təklif etməsi onlara olan marağın və tələbin artmasına gətirib çıxartdı".

**İqtisadçı ekspert onu da vurğuladı ki, qiymətli kağızlar bazarının inkişafı üçün bazarda iştirak edən şirkətlərin və investorların sayının artması vacibdir:** "Dövlət qiymətli kağızlarının bazara çıxarılması aktivliyi artıran səbəblərdən biri olsa da, bu aktivliyin dayanıqlı olması üçün özəl sektorun bazarda iştirakı zəruridir. Bu baxımdan özəl şirkətlərin də qiymətli kağızlar bazarında iştirakının təmin edilməsinə ehtiyac var. Dövlət elə bir metodlardan istifadə etməlidir ki, özəl sektorun qiymətli kağızlar bazarında iştirakı artsın. Bu baxımdan Azərbaycanda korporativ idarəetmənin inkişafına ehtiyac var. Özəl şirkətlər korporativ idarəetmə keçməlidir. Çox təəssüf ki, özəlləşdirmədən sonra korporativ idarəetmə deyil, açıq səhmdar cəmiyyətlər deyil, bir əldən idarə olunan şirkətlər formalaşdı. Hətta səhmdar cəmiyyət kimi özəlləşdirilmiş qurumlar belə sonradan bir əldən idarə olunan firmalara çevrildilər. Bu baxımdan səhmdar cəmiyyət formasının özəl sektorda inkişaf etməməsi sonradan qiymətli kağızlar bazarının inkişafını formalaşdırmadı. Bir əldən idarə olunan firmaların sayı artdıqca qiymətli kağızlar bazarının zəifləməsi müşahidə olundu.

**V.Bayramovun sözlərinə görə, ölkədə həm də korporativ idarəetmə formasının inkişafı və qiymətli kağızlar bazarında səhm satışlarının aktivləşməsi zəruridir:** "Bu sahədə həm də bir ənənənin formalaşmasına ehtiyac var. Əslində səhmdar cəmiyyətlə müəssisənin inkişafı üçün çox vacibdir. Bu, kənardan vəsaitlərin cəlb olunmasına, şəffaflığın yaranmasına, hesabatlılığın formalaşmasına gətirib çıxarır. O baxımdan özəl sektorda səhmdar cəmiyyətlərin formalaşmasına və dövlətin bu prosesi təşviq etməsinə ehtiyac var ki, gələcəkdə inkişafı müşahidə edə bilək. Qiymətli kağızlar bazarının inkişafı növbəti mərhələdə özəl sektorun orada hansı səviyyədə təmsil olunmasından asılı olacaq. Əgər dövlət özəl sektorun iştirakını təmin etsə, biz gələcəkdə qiymətli kağızlar bazarının inkişaf etdiyini müşahidə edə biləcəyik".

**❑ Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Bu gün, yanvarın 18-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk Qrupunun həmsədrləri Endryü Şofer (ABŞ), Stefan Viskonti (Fransa Respublikası), İqor Popov (Rusiya Federasiyası) və Ermənistan Respublikasının xarici işlər naziri Edvard Nalbəndyanla görüşəcək. Azərbaycan XİN-dən verilən məlumata görə, Plşanın Krakov şəhərində keçiriləcək görüşlərdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də iştirak edəcək.**






# Qarabağı azad etmək fürsəti - "Belə şans həmişə ələ düşmür..."

## Ermənistanda ictimai-siyasi hərarətin artması Azərbaycana fürsət yaradır; bu ərəfədə XİN rəhbərlərinin görüşünün təşkil olunması daha çox oyuna bənzəyir; **ekspert:** "Bizim tam haqqımız çatır ki, ərazimizdə antiterror əməliyyatı keçirək..."

Məlum olduğu kimi, yeni ilin ilk yarısında təmas xəttində gərginliklər müşahidə olunub, nəticədə təxribatlara əl atan düşmən itkilər verib. Bəzi müşahidəçilər hesab edir ki, təmas xətti boyunca gərginliklərin olması, hətta itkilər versə belə, Ermənistan rəhbərliyinə çox lazımdır. Məsələ burasındadır ki, səlahiyyətləri mart ayında başa çatacaq prezident Serj Sərkisyanı hazırda baş nazir kürsüsü daha çox maraqlandırır, nəinki erməni xalqının taleyi. Bunu artıq erməni ekspertlər özləri də açıq şəkildə deyirlər və Sərkisyanın siyasi səhnədən getməsini Ermənistanın xilası kimi dəyərləndirirlər. Həmçinin bəzi ekspertlər gecikmədən Azərbaycanla güzəştli sülhə gedilməsini, erməni gənclərin özgə torpaqlarında ya Azərbaycan əsgərinin cavab atəşi, ya da intihar nəticəsində məhv olmasına son qoyulmasını tələb edirlər. Üstəlik, Ermənistan daxilində sosial gərginlik son həddə çatıb. Elə yanvarın 19-da İrəvanda hakimiyyətin bahalaşma siyasətinə etiraz olaraq yürüş keçiriləcək. S.Sərkisyan üçünsə diqqəti daxildəki problemlərdən yayındırmaq üçün Qarabağdakı gərginliyi tətikləmək yeganə çıxış yoludur.

**Bu arada rusiyalı politoloq Stanislav Tarasov Ermənistanın yeni baş nazirinin Serj Sərkisyan, hazırkı baş nazir Karen Karapetyanın isə prezident olacağını deyib. Modern.az saytı Ermənistan KİV-nə istinadən xəbər verir ki, politoloq bunu Moskvanın istədiyini xatırladıb. Onun fikrincə, Ermənistanda Putin-Medvedyev yerdəyişməsinə bənzər ssenari olacaq:** "Moskvada baş nazir Karen Karapetyanla prezident Serj Sarkisyanı bir-birindən ayrı tutmurlar. Bizə elə gəlir ki, Serj Azatoviç hökumət başçısı, Karen Karapetyan isə prezident olacaq".

Serj Sərkisyanın Respublika Partiyasının sədri olduğunu xatırladan Tarasov əsas səlahiyyətlərin baş nazirin əlində cəmləşəcəyini vurğulayıb.

Xatırladaq ki, Ermənistanda növbəti prezident seçkiləri bu il martın 1-də start götürəcək. Budəfəki seçkilərin özəlliyi ondan ibarətdir ki, ölkədə əsas icraedici funksiya prezidentdən baş nazirə keçəcək. Prezident isə yaşı 40-ı keçmiş, son 6 ili Ermənistanda yaşayan namizədlərin qatılacağı seçkidə mübarizə aparacaq. Budəfəki seçki mərhələli olacaq və martın 10-dək davam edəcək. Ermənistan prezidentini parlament seçəcək. Dövlət başçısı olacaq şəxs yalnız 1 müddətdə (7 illik) seçiləcək.

Prezidentliyə əsas namizədlər Karen Karapetyan, Qrant Baqratyan, Andreas Qukasyan, Paruyr Ayrikyan, Raffi Ovanisyan, Armen Melikyan və Vardan Sedrakyandır.

**Ermənişünas alim Qafar Çaxmaqlı "Yeni Müsavat"a düşmən ölkədəki durumu şərh edərkən bildirdi ki, gərginlik qaçılmazdır:** "Ermənistan keçən il referendum keçirərək parlament üsul-idarəsinə keçdiyindən ölkənin başına kimin gələcəyi indidən gərginlik yaratmaqdadır. Erməni hərbi-siyasi rejimi Sərkisyanın başçılığında bu hakimiyyətin davam etdirilməsinə və Sərkisyanın baş nazir olmasına çalışır. Bu işi reallaşdıracaq siyasi qüvvələr isə parlamentdə vaxtında yerlərini tutublar. Onlardan biri "Tsarukyan" bloku, digəri isə Daşnaksütyun Partiyasıdır. Təbii ki, buna qarşı etirazlarını bildirməkdə olan qüvvələr də var. Onlar küçələrdə sözlərini deməyə çalışacaqlar". **Q.Çaxmaqlı işğalçı ölkədə hətta xalq üsyanının baş verməsini mümkün sayır:** "Belə anormal, antidemokratik cəmiyyətlərdə hakimiyyət dəyişikliyi iğtişaşsız və üsyansız olmur. Bundan əvvəl də belə olmuşdu. Sərkisyan prezident kürsüsünü Köçəryandan alanda İrəvanda 8 nəfər öldürülmüşdü. Ermənistanda seçkiöncəsi belə qarışıqlıq və proseslər təbii proseslərdir, etirazların olması həm də ölkə əhalisinin ağır durumu ilə bağlıdır və onların önündə gedəcək siyasi qüvvələr zəif olduğundan bunun hansısa hakimiyyət dəyişiklikləri ilə müşayiət olunması az ehtimaldır. İkinci tərəfdən, bu ölkədə son sözü adətən Rusiya deyir. Əgər Moskva Ermənistanda hakimiyyət dəyişikliyi etmək istəsə, bunu edəcək. "Çiçəklənən Ermənistan"ın lideri Qagik Tsarukyanın bu gün öz namizədliyini ortaya qoyması artıq Sərkisyanı düşünməyə, Rusiyanı isə seçim etməyə sövq edəcək".

**Bəs Azərbaycan bu ərəfədə Qarabağı azad etmək üçün hərbi əməliyyatlara başlaya bilərmi? Q.Çaxmaqlı bunu mümkün hesab edir:** "Biz bu proseslərə uyğun olaraq addımlar ata bilərik. Bundan əvvəlki illərdə də imkanlar yaranıb, lakin başqa faktorlar Qarabağı azad etmək üçün qərar verməyə mane olub. Əlbəttə, belə fürsətlər hər zaman ələ düşmür. Bizim tam haqqımız çatır ki, öz ərazimizdə antiterror əməliyyatları qərarını verək. Bu, Ermənistandakı olaylardan asılı olmadan da edilə bilər".

Azərbaycan və Ermənistan XİN rəhbərlərinin bir araya gətirilməsi isə olsa-olsa təmas xəttindəki gərginliyin azaldılmasına xidmət edəcək. Ancaq Ermənistan prezidentinin özü təxribatlar törətməyə və hakimiyyətinin ömrünü uzatmaq üçün hətta lokal müharibəyə meylli görünür. Lakin indiki durumda regionda müharibənin alovlanması beynəlxalq dairələrin marağında deyil.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da "Yeni Müsavat"a bildirdi ki, hazırkı şərtlər daxilində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündən nəticə gözləmək əbəsdir:** "Həm də bu gün Ermənistan o vəziyyətdə deyil ki, Qarabağla bağlı nə isə addım atsın. Ermənistan prezidenti Serj Sərkisyanın bütün diqqəti hakimiyyətini qorumaq və uzatmağa yönəlib. Onun qarşısında iki əsas vəzifə var: birincisi, o, parlament seçkilərini saxtalaşdırıb baş nazir olmaq istəyir. İkincisi, özünə yaxın şəxslərdən birini prezident kreslosunda oturtmağa çalışır".

**E.Şahinoğlu əmindir ki, bunun fonunda Serj Sərkisyan Qarabağla məşğul olmayacaq:** "O, sadəcə, naziri Edvard Nalbəndyanı ora-bura göndərəcək".

Bu ərəfədə Qarabağ məsələsinin 4 qətnaməsi on illərdir kağız üzərində qalan BMT rəhbərliyinin yadına düşməsi də təəccüb doğurur. Ermənistanın işğalçılıq siyasətinə qarşı təsirli tədbirlər görməyən qurumun "narahatlığını" ifadə etməsi istənilən halda diqqət çəkir. "Ukrayna, Dağlıq Qarabağ, Gürcüstan və Dnestryanı münaqişələr üçün vasitəçilik təşəbbüslərini canlandırmaq lazımdır", - deyə BMT-nin baş katibi Antonio Qutyerres keçirdiyi brifinqdə deyib. Bu barədə APA-nın BMT-nin saytına istinadən verdiyi xəbər yayıb. Qurumun 2018-ci il üçün fəaliyyətinin prioritetlərini açıqlayan baş katib bildirib ki, əsas prioritet Koreya yarımadasının sülh yolu ilə nüvə silahlarından təmizlənməsi istiqamətində diplomatik səylər genişləndirməkdir. O, Myanmarda qaçqın probleminə toxunaraq Banqladeşə sığınanlara dəstək üçün beynəlxalq ictimaiyyətə müraciət edib. İsrail-Fələstin münaqişəsindən bəhs edən A. Qutyerresin sözlərinə görə, bu problem ancaq iki dövlətin yaradılması əsasında həll edilə bilər, başqa alternativ yoxdur. BMT baş katibi vurğulayıb ki, hər kəs hər yerdə dünyanı daha təhlükəsiz etmək üçün bir şeylər edə bilər: "İnsan hüquqlarının müdafiəsi dövlətləri və cəmiyyətləri möhkəmləndirir, suverenliyi gücləndirir".

A.Quterreş onu da deyib ki, Ukrayna, Dağlıq Qarabağ, Gürcüstan və Dnestryanı münaqişələrin həlli BMT üçün prioritet olacaq. Onun sözlərinə görə, söhbət Şərqi Ukrayna üzrə normand formatından və üçtərəfli kontakt qrupundan, Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏT-in Minsk Qrupundan, Gürcüstan üzrə Cenevrə müzakirələrindən və Dnestryanı üzrə "5+2" prosesindən gedir.

Göründüyü kimi, BMT rəhbərliyi dəyişsə də, qurumun Qarabağ münaqişəsi dəyişmir, sadəcə, növbəti açıqlamalar eşidilir. Minsk Qrupunun Qarabağ məsələsini necə "həll etdiyi" 24 ildir ki, göz önündədir.

**Politoloq E.Şahinoğlu da əmindir ki, BMT-nin münaqişənin həlli ilə məşğul olacağı gözlənilən deyil:** "BMT-də əsas qərarlar Təhlükəsizlik Şurasının 5 üzvündən asılıdır. Onlardan isə heç biri təəssüf ki, qabağa çıxıb münaqişənin həllini sürətləndirmək üçün qollarını çırmalamaq istəmir. Belə olan halda məsuliyyət əvvəlkitək ATƏT-in üzərində olacaq".

Azərbaycan isə Ermənistanın sülh yolu ilə işğala son qoymaq niyyətində olmadığını, danışıqların uzadılmasına, sadəcə, status-kvonun davam etməsi prizmasından yanaşdığını yaxşı bildiyi üçün ehtiyat variantlara da xüsusi diqqət yetirir. Elə bu günlərdə ordumuzun növbəti təlimlərinin keçirilməsi də bu tədbirlərin məntiqi davamıdır.

Müdafiə Nazirliyindən verilən məlumata görə, Naxçıvandakı Əlahiddə Ümumqoşun Orduda birləşmə, hərbi hissə komandirləri və onların müavinləri ilə cari ilin ilk komandir toplantısı keçirilir. Toplantının əsas məqsədi idarəetmə orqanlarının açılması, komandirlərin qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsi və onlarda döyüş işinin təşkili zamanı yüksək təşkilatçılıq vərdişlərinin aşılanması, eləcə də silahlanmaya yeni daxil edilmiş silah və hərbi texnika ilə tanışlıqdır. Toplantı zamanı şəxsi heyətdən fiziki və taktiki hazırlıq, həmçinin topoqrafiya və rəhbər sənədlərinin tələblərini bilmələri üzrə məqbullar qəbul edilir. Məşğələlər Təlim-Tədris Mərkəzində və "Naxçıvan" poliqonunda keçirilir.

Azərbaycanın mövqeyi birmənalıdır, sülh yolu ilə olmasa, hərbi əməliyyatlar torpaqlarımızın azadlığı üçün qaçılmaz olacaq. Hər halda, Sərkisyandan sonra prezident kürsüsünə oturacaq erməni bu perspektivi unutmamalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

**Türkiyə ordusu Suriya ərazisinə üçüncü əməliyyata hazırlaşır. Bu həftənin əvvəlində prezident Ərdoğan bəyan etdi ki, ordu Afrina daxil olacaq. Artıq Türkiyə ordusu Afrin istiqamətinə silah və texnika daşıyır, hətta mümkündür ki, ən yaxın zamanda bu əməliyyat başlasın.**

**Kənan RÖVŞƏNOĞLU**



# Türkiyənin Afrin "düyünü" - kəsmək, yoxsa açmaq?

Qeyd edək ki, Afrin Suriyanın şimalında müəyyən qədər Türkiyə ərazilərinə doğru uzanan kürd kantonlarından ("kanton" fransızca "vilayət" deməkdir) biridir. Vilayətin eyni adlı mərkəzində - Afrin şəhərində 50 min nəfər yaşayır. Türkiyə ordusu 2016-cı il 24 avqustda Suriyada "Fırat Kalkanı" əməliyyatı başladıb, Əziz-Cerablus xəttini İŞİD-dən azad etdikdən sonra Afrin faktiki olaraq Qamışlıdakı əsas kürd əraziləri ilə bağlarını itirib.

Astana anlaşmasına əsasən İdlibdə atəşkəsə nəzarət etmək Türkiyəyə həvalə olunub və Türkiyə ordusu oktyabrda İdlibin şimalına ordu yeridərək Afrin vilayətinin cənubunu nəzarətə götürüb. Hazırda xəritəyə əsasən Afrin 3 tərəfdən - şərqdə "Fırat Kalkanı" əməliyyatı ilə azad edilən Cerablus, şimal və qərbdə Türkiyə dövləti sərhədləri, cənubda isə İdlibin şimalına yerləşmiş Türkiyə ordusu var. Yalnız cənub-şərqə doğru Suriya ordusunun Hələb ətrafındakı qüvvələri nəzarət edir.

Yeni hazırda faktiki olaraq Afrinin ətrafında ərazilərin 80 faizə yaxını Türkiyə ordusunun nəzarətindədir. Ancaq gözlənilən əməliyyat Türkiyə üçün ciddi risk daşıyır. Hətta Türkiyənin ana müxalifət partiyası CHP də bu əməliyyata qarşı çıxıb. Çünki hazırda Afrində nə qədər kürd (SDQ - Suriya Demokratik Qüvvələri) silahlısının olması və onların silahlarının sayı bilinmir. Üstəlik, ABŞ açıq şəkildə kürdləri dəstəkləyir, Amerika hərbi qüvvələri Qamışlıda kürdlərə açıq dəstək verir. Yeni Afrində amerikalıların olması haqda dəqiq bilgi yoxdur, ancaq hərbi əməliyyatlardan sonra amerikalıların kürdlərə dəstək verib-verməyəcəyi məlum deyil. Üstəgəl, kürdlər ABŞ-ın Suriyada İŞİD-ə qarşı müharibəsində Pentaqonun əsgərləri kimi fəaliyyət göstərir, göstərməkdə davam edir.

Bundan başqa, Türkiyənin Afrinə müdaxiləsi söhbətləri yayıldıqdan sonra ABŞ bəyan etdi ki, Suriya kürdləri üçün 30 min nəfərdən ibarət sərhəd qoşunlarının təşkil olunması ilə bağlı proqram başladıb. Yeni amerikalılar hələ də kürdlərin yanındadır. Bundan əlavə, Türkiyənin müdaxiləsi ölkə daxilində PKK-nın terror fəaliyyətlərinin aktivləşməsinə səbəb ola bilər. Nəhayət, Afrin kiçik bölgə olsa da, orada ciddi müqavimət göstərəcək sayda kürd silahlısı var və bunlar Türkiyə ordusuna qarşı savaşa bilərlər. Bütün bunlar necə deyərlər, Türkiyənin Afrin əməliyyatının mümkün riskləridir. Ancaq məsələ ondadır ki, Afrin əməliyyatı indi həm də zərurətə çevrilib. Çünki Türkiyə PYD/YPG-ni terror təşkilatı PKK-nın Suriya qolu hesab edir və onun heç bir danışıqlara getmir. Üstəlik, kürdlərin Suriyada faktiki olaraq muxtariyyət kimi fəaliyyət göstərməsi Türkiyənin daxilində separatizmi körükləyir. Sabah Suriyada leqal kürd muxtariyyəti qurulduqdan sonra bunun Türkiyəyə və buradakı separatçı kürd qruplarına - PKK-ya ilham qaynağı olacağı açıq-aşkardır. Kürd məsələsi ilə bağlı məşhur fikir budur ki, Yaxın Şərqin 4 ölkəsi - Türkiyə, İran, İraq və Suriya bir-birindən asılıdır. Yeni birində başlayan kürd məsələsi sürətlə o birilərində də alovlanacaq.

Bu səbəbdən Türkiyə ilkin mərhələdə ən azı sərhədlərindən kürd silahlılarının təmizlənməsi, bu bölgədə Azad Suriya Ordusu kimi Türkiyə ilə müttəfiq münasibətlərinə malik qrupların yerləşməsinə maraqlıdır. Türkiyə həmçinin Suriyada dəstəklədiyi qüvvələrin Suriyada daha çox ərazilərə nəzarət etməsi və sülh anlaşmasında ciddi siyasi paya sahib olmasına çalışır. Çünki münaqişə sona çatmaq üzrədir və sona qalan əsas qüvvələr danışıqlar masasına oturub ölkənin gələcəyi ilə bağlı qərar verəcək. Bu zaman daha güclü olan və daha böyük ərazilərə nəzarət edən qüvvələr seçiləcək. Nəhayət, terrorizmə qarşı mübarizə.

Bir çox analitik, o cümlədən media qurumları da Afrin əməliyyatının Türkiyə üçün risk daşıdığını qeyd edir. Yeni bir bataqlığa çevrilməsi, orduların daxil olduqdan sonra ilişib qalacağını ehtimal edir. Bu risklər əlbəttə ki, var - bütün müharibələrdə olduğu kimi. Ancaq Türkiyənin indi faktiki olaraq qarşısında başqa yolu yoxdur. Ölkənin Suriya ilə 900 kilometrik sərhədinin yarısı kürdlərin nəzarətindədir. Əziz-Cerablus xətti və Yayladağ-Reyhanlı xətti Türkiyə ordusu və müttəfiqlərinin nəzarətindədir. Suriya ordusu və Rusiya qüvvələri hazırda İdlibin azad edilməsi əməliyyatını davam etdirir. Əgər əməliyyat sürətlə davam etsə, tezliklə İdlibin Türkiyə ilə sərhədləri Suriya ordusunun nəzarətinə keçəcək və Türkiyə faktiki olaraq müttəfiqləri ilə birlikdə 2 min kv.km-lik əraziyə nəzarət edə biləcək. Bu səbəbdən də Afrin əməliyyatı həm də zərurətdir.

Bu əməliyyatın baş tutmasına, ilkin ehtimallara görə, Rusiya razılıq verib. Çünki artıq Afrindəki rus qüvvələri (təxminən 230 nəfərlik hərbi birləşmə) kürd ərazilərindən hökumətin nəzarətindəki bölgəyə çəkilib. Əgər sahə qüvvələri, o cümlədən Suriya hökuməti və İran da dəstək verərsə, Türkiyə ciddi itki vermədən İraqda olduğu kimi kürdləri Afrindən təmizləyə bilər. Ehtimal ki, əməliyyatın yubanmasında bu amilin rolu var. Ankara Vaşinqtonun qarışmaması, digər yerli güclərin dəstək verməsi üçün diplomatik fəaliyyət yürüdür. Uğurlu nəticə olarsa tezliklə Afrinin YPG silahlılarından təmizlənməsi baş tuta bilər.

# ABŞ-ın terror xəbərdarlığından sonra Azərbaycan nə etməlidir?

**Ötən həftə ABŞ Dövlət Departamentinin amerikalı turistlər üçün riskli ölkələr sırasında Azərbaycanın da adını qeyd etməsi ətrafında gedən müzakirələr durmadan artır. Bu uyarıcı mesajların təsadüf olmadığı vurğulanmaqla yanaşı, bu istiqamətdə ölkəmizin təhlükəsiz və hüquq-mühafizə orqanlarının ayıq-sayıq olmasının vacibliyi qeyd olunur.**





**Elxan Şahinoğlu:** "Vaşinqton siyahısına Azərbaycanın adını salmaqla yanlışlığa yol verib"
**Əhəd Məmmədli:** "Bunu terror təhlükəsi xəbərdarlığı kimi yox, siyasi bir xəbərdarlıq kimi qiymətləndirmək lazımdır"

Azərbaycanın dünyanın təhlükəsiz ölkələr sırasında olduğu göz önündədir, amma bundan arxayınlaşmamaqdan da söz açılır. Xüsusilə ölkəmizin təhlükəli bir regionda yerləşdiyi önə çəkilir, qonşu ölkələrimizin hər birinin daxillərində təhlükəli proseslərin getdiyi bildirilir.

İŞİD terror təşkilatının getdikcə tarixə gömüldüyü və terror təşkilatının tərkibində vuruşan terrorçuların ya öz ölkələrinə, ya da müxtəlif yerlərə səpələndikləri qeyd olunur. Bu baxımdan onların Cənubi Qafqaz və Azərbaycana da üz tutacaqları ehtimalları az görünmür.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Amerikanın Azərbaycanın adını çəkməklə yanıldığını düşünür:** "Azərbaycanda sabitlik hökm sürür. Vaşinqton terror təhdidi olan ölkələrin siyahısına Azərbaycanın adını salmaqla yanlışlığa yol verib. Necə olur ki, Azərbaycan ABŞ vətəndaşları üçün Ermənistan və Gürcüstandan daha təhlükəlidir? ABŞ-ın hansı vətəndaşı bu illərdə Azərbaycanda terror təhlükəsi ilə üzləşib? Azərbaycanda bu günə qədər ABŞ vətəndaşlarına qarşı terror hadisəsi baş verməyib, kimisə girov götürməyiblər. Görünür, Amerikada hesab ediblər ki, Azərbaycan İranla qonşu olduğundan amerikalıların Azərbaycana gəlməsi risklidir. Ona qalsa Ermənistan da İranın qonşusudur və iki dövlət arasında isti münasibətlər var. Bəs Ermənistanın adı niyə siyahıda yoxdur? Buna baxmayaraq, Amerikanın niyə belə qərar verdiyini öyrənmək lazımdır. Doğrudur, ABŞ kəşfiyyat sirləri Azərbaycanın müvafiq orqanları ilə bölüşməyə həvəs göstərməyəcək. Ancaq Vaşinqton Azərbaycanı strateji tərəfdaş adlandırırsa, bizi gələcək hansısa təhlükədən xəbərdar etməlidir. Ancaq mənə elə gəlir ki, Azərbaycanla bağlı qərar ciddi araşdırmalara əsaslanmır. Azərbaycanın ətrafında vəziyyət stabil deyil. Qonşularımız olan Rusiya və İranda daima terror olayları baş verir. Demək, biz daima təhlükəsizliyimizin artırılması haqqında düşünməli və müvafiq tədbirlər görməliyik. Birincisi, dinimiz adına ləkə olan bəzi radikal qruplar peyda ola bilər ki, pis əməllərini həyata keçirmək istəyə bilərlər. Beləlari dəfələrlə nəsə plan qurub, günahsız insanlara hücum hazırlayıblar. Ancaq görülən tədbirlər nəticəsində planlarını reallaşdıra bilməyiblər. Üstəgəl, Ermənistan kimi düşmənimiz var ki, Azərbaycanda terrorda maraqlıdır. Təsadüfi deyil ki, ASALA terror təşkilatının yenidən aktiv fəaliyyətə başlaması haqqında xəbərlər var. Elə buna görə də ABŞ kimi ölkələr Azərbaycanı hansısa siyahıya daxil etməməli, təhlükəsizliyin artırılması naminə əməkdaşlığa üstünlük verməlidir. Bu, strateji tərəfdaşlığın ruhuna da uyğundur".

**Politoloq Əhəd Məmmədli isə ABŞ-ın xəbərdarlığını səmimi saymır:** "Arxayınlaşmaq olmaz. ABŞ-ın xəbərdarlığını səmimi saymıram. Əgər həqiqətən Azərbaycana hansısa təhlükə varsa, bunu qeyri-rəsmi kanallarla bildirmək olardı. Azərbaycan Cənubi Qafqazın ən inkişaf etmiş sabit dövlətidir. Son zamanlar qeyri-neft sektorunun, əsasən də turizmin inkişafı göz önündədir. Lakin buna rəğmən Gürcüstan, Ermənistanın deyil, məhz Azərbaycanın bu siyahıya salınması heç də ABŞ-ın xoş məramından xəbər vermir. Məncə, bunlar hamısı son dönəmlərdə Azərbaycanın qardaş Türkiyə ilə sıx əməkdaşlıq və yaxınlığına görədir. Təsadüfi deyil ki, ABŞ-ın vətəndaşlarına hansı ölkələrə getməmək haqqında xəbərdarlıq siyahısında Azərbaycanla bərabər Türkiyə də yer alıb. Bunu həm də Azərbaycana Amerikanın xəbərdarlığı kimi qiymətləndirmək olar, lakin bunu terror təhlükəsi xəbərdarlığı kimi yox, siyasi bir xəbərdarlıq kimi qiymətləndirmək lazımdır. ABŞ bununla Azərbaycana göstərir ki, Türkiyə ilə yaxınlıqdan narahatdır. Amerikalılar anlamırlar ki, Türkiyə Azərbaycan üçün nə Rusiya, nə də İran deyil, bu ölkələrdə hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Azərbaycanla Türkiyə həmişə bir yerdə olacaq. Çünki iki qardaş dövlətdirlər. Azərbaycan mövcud şəraitdə hərbisini, kəşfiyyatını və digər güc strukturlarını gücləndirməli, peşəkarlaşdırmalıdır. Türkiyə ilə siyasi-hərbi ittifaq qurmalıdır. Azərbaycan balaca, işğala məruz qalan ölkədir. Buna görə müdafiəsi və təhlükəsizliyi üçün qardaş Türkiyənin hərbi bazalarının ölkəmizdə yerləşdirilməsi artıq zərurət, şərtdir. Separatçılıq və dini fundamentalizmin qarşısı yuvasında alınmalıdır. Separatçılıq və məzhəb ayrı-seçkiliyini yayanlar ciddi nəzarətə götürülməli, cəzalandırılmalı, başqa dövlətlərin dini xadimlərini təbliğ edənlər barədə ciddi şəkildə ölçülər götürülməlidir. Dünyəvilik, sekulyarlıq adı altında digər insanların dini inanclarını təhqir edənlərə də həmçinin ən azı xəbərdarlıq edilməlidir. Və bütün bunlarla iş ilk öncə sosial şəbəkələr, mediadan başlanmalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

# Bakı-Sofiya marşrutu üzrə aviareyslər rentabelli olacaqmı...

## İlham Şaban: "Yeni açılan aviareys daha çox turizm baxımından əhəmiyyətlidir"

**Artıq Bakı-Sofiya marşrutu ilə birinci aviareys həyata keçirilib. Belə ki, yanvarın 16-da Azərbaycanın paytaxtı Bakıdan Bolqarıstanın paytaxtı Sofiyaya ilk birbaşa aviareys yola düşüb. İlk birbaşa aviareysin açılışında Azərbaycanın baş naziri Artur Rasizadə və Bolqarıstanın baş naziri Boyko Borisov iştirak ediblər.**

Bakı və Sofiya arasında birbaşa aviareysin açılması barədə razılaşma Azərbaycan prezidenti İlham Əliyev və Bolqarıstan prezidenti Rumen Radev arasında danışıqlar çərçivəsində əldə olunub.

Bolqarıstanın paytaxtı Sofiya Azərbaycanın ilk loukosteri "Buta Airways"in birbaşa uçuşlar yerinə yetirəcəyi Avropa İttifaqında ilk ölkə olub. Bakı-Sofiya istiqaməti üzrə minimal tarif, aviaşirkətin digər istiqamətləri kimi 29 avro (bir tərəfə) təşkil edəcək. Uçuşlar həftədə bir dəfə çərşənbə axşamları həyata keçiriləcək.

Qeyd edək ki, bununla bağlı dövlət başçısı İlham Əliyev öncədən məlumat vermişdi. Prezident Bakıda Bolqarıstan baş naziri Boyko Borisovla görüşündə bu fikirləri səsləndirmişdi: "Sabah Bakı-Sofiya marşrutu ilə birinci aviareys təşkil ediləcək. Azərbaycanın "Buta Airveys" şirkəti birinci reysi icra edəcək. Bu da çox əlamətdar hadisədir".

**Dövlət başçısı bu reysin əhəmiyyətini də vurğulamışdı:** "Bu reys əlbəttə ki, insanları bir-birinə daha da sıx bağlayacaq, insanlararası əlaqələr güclənəcək, turizmin inkişafına təkan veriləcək və bir sözlə, Bolqarıstan-Azərbaycan dostluğunu daha da möhkəmləndirəcək".

**Prezident İlham Əliyev qeyd etmişdi ki, iki ölkə humanitar sahədə də əməkdaşlığı dərinləşdirir:** "Azərbaycanda Bolqarıstanın mədəniyyətinə, tarixinə, ədəbiyyatına çox böyük maraq var. Bakı Slavyan Universitetində bolqar dili və ədəbiyyatı mərkəzi fəaliyyət göstərir. Əlbəttə ki, humanitar sahədəki əməkdaşlıq, insanlar arasındakı ünsiyyət bizim dostluğumuzu daha da möhkəmləndirir və möhkəmləndirəcək".



Bəs görəsən, yeni açılan aviareys nə dərəcədə rentabelli olacaq? Bu reys üzərindən başqa hansı istiqamətlərdə uçuşlar üçün istifadə ediləcək?

**Bu sualları cavablandıran iqtisadçı ekspert İlham Şaban yeni açılan aviareysin daha çox turizm baxımından əhəmiyyətli olduğunu vurğuladı:** "Mən iki dəfə Bolqarıstanda olmuşam, orada kurort zonaları ilə də tanışam. İki il öncə Azərbaycan Beynəlxalq Avtovağzalından Bolqarıstanın kurort bölgələrinə marşrut açıldı. Yeni marşrutun açılmasının səbəbi o idi ki, Bolqarıstanda qiymətlər kifayət qədər cəlbedici idi. İnsanlar Türkiyəyə gedib, oradan Qara dəniz kurortlarına istirahət etməyə çalışırdılar. Bu baxımdan yay aylarında Bakı-Sofiya aviareysi kifayət qədər rentabelli reys ola bilər".

**İlham Şaban onu da vurğuladı ki, yeni reysdən Balkanlara da uçmaq üçün istifadə edilə bilər:** "Marşrut nə qədər çox olsa bir o qədər xeyirlidir".

Qeyd edək ki, "Buta Airways" Avropa İttifaqı məkanı xaricindən Bolqarıstana uçuş həyata keçirən ilk aşağı büdcəli aviaşirkətdir. Həmçinin Bolqarıstan "Buta Airways"in Avropa ölkələri arasında ilk uçuş etdiyi ölkədir. Bu aviareysin iqtisadi baxımdan faydalı olacağı ilə bağlı ümidlər var. Belə ki, 2016-cı ildə Azərbaycandan Bolqarıstana 16 min turist səfər edib. Bolqarıstanda da Azərbaycana maraq böyükdür. Ölkəmizin turizm potensialı gündən-günə artır. Bu baxımdan, hər iki istiqamətdə gediş-gəlişlərin artacağı gözlənilir. Azərbaycan və Bolqarıstan arasında birbaşa uçuşların başlanması turizm sektorunda bir sıra əhəmiyyətli layihələri həyata keçirməyə imkan yaradacaq.

❑ **Nərgiz LİFTİYEVA**

# "O cür hotel və hostellər məsuliyyət daşıyır"

## Azərbaycanlılara girişi qadağan olunan hotel və hostellərlə bağlı nazirlikdən açıqlama

**Xəbər verdiyimiz kimi, paytaxt Bakıda bir çox hostel və hotellərə Azərbaycan vətəndaşlarının girişi qadağandır. Bir neçə gün əvvəl "Yeni Müsavat"ın əməkdaşı bu haqda araşdırma aparmışdı və məlum olmuşdu ki, paytaxtın mərkəzində yerləşən "Baygan Hostel", "Hostel 44" və "Old City İnn" hoteli birmənalı olaraq öz qapılarını Azərbaycan vətəndaşlarının üzünə bağlayıb.**




Məsələ ilə bağlı artıq Mədəniyyət və Turizm Nazirliyi də araşdırma aparmağa başlayıb. Bu haqda nazirliyin İnformasiya və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şixəmmədov "Yeni Müsavat"a açıqlamasında qeyd edib: "Bildiririk ki, Azərbaycanda fəaliyyət göstərən mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektləri turistlərə xidmət göstərdikləri zaman yerli və ya əcnəbi bölgüsü aparmamalı, onların hüquqlarını pozmamalıdılar.

Mədəniyyət və Turizm Nazirliyi turizm siyasətini aparan dövlət qurumu olaraq, ölkəyə əcnəbi turistlərin cəlb olunması ilə yanaşı, daxili turizmin inkişaf etdirilməsi, daxili turist dövriyyəsinin sayının daha da artırılmasında maraqlıdır. 2017-ci ilin son 6 ayının araşdırılmasına əsasən qeyd etmək olar ki, bu müddətdə daxili turist səfərlərinin sayı təxminən 900000-ə çatıb. Ölkədə turizm sahəsinə göstərilən dövlət dəstəyinin məntiqi nəticəsi olaraq, bu rəqəmlərin 2018-ci ildə daha da artacağı mütəxəssislər tərəfindən proqnozlaşdırılır".

**Qurum rəsmisi həmçinin qeyd edib ki, istehlakçıların hüquqlarını birbaşa və ya dolası yolla məhdudlaşdırmağa çalışanlar qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır:** "Yerli turistlərə bu və ya digər formada hər hansı mehmanxana və ona bərabər yerləşdirmə obyektləri tərəfindən xidmət göstərməkdən imtina edilməsi "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Bu qanunvericiliyə görə, bütün vətəndaşlar ticarət və başqa xidmət növləri sahəsində tələbatlarının ödənilməsində bərabər hüquqa malikdirlər. Qanunvericilik aktlarında nəzərdə tutulmuş hallardan başqa, istehlakçıların hüquqlarına üstünlük verilməsinə, birbaşa və ya dolayısı ilə hər hansı şəkildə məhdudlaşdırılmasına yol verilmir. Ticarət və digər xidmət növləri müəssisələrində istehlakçının hüquqları pozularsa, satıcı (icraçı) və bu müəssisələrin işçiləri qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar".

Onu da qeyd edək ki, ölkədə fəaliyyət göstərən bəzi hotellər də var ki, onlar azərbaycanlıların girişinə qadağa qoymasa da, əcnəbi turistlərdən fərqli olaraq yerli vətəndaşlardan nikah sənədi tələb edilir. Dəfələrlə bu məsələ mətbuatda müzakirə edilib, hətta nazir səviyyəsində reaksiya verilib. Belə ki, nazir Əbülfəs Qarayev mətbuata verdiyi açıqlamalarının birində hotellərdə nikah kağızının tələb olunması ilə bağlı məsələyə münasibət bildirərkən qeyd etmişdi ki, qanunvericilikdə belə bir şey yoxdur: "Qanunvericilikdə heç kəs tələb etmir ki, hər hansı nikah kağızı, hansısa izahat verilməlidir. Hesab edirəm ki, əgər insan öz pasportunu təqdim edərək öz otağında yaşayırsa, onun yanına gələn qonaqların haqqında soruşmağa dəyməz".

Bütün bunlara baxmayaraq problem hələ də öz həllini tapmayıb.

❑ **Xalidə GƏRAY**







# Bakı-Sumqayıt yolunda tıxac fəlakəti - necə qurtulaq?

## Minlərlə sakin illərdir hər gün eyni stresi yaşayır; səbəb isə...

**İllərdir ki, Bakı-Sumqayıt yolunda mütəmadi olaraq tıxaclar yaranır. Əməkdaşımız buradakı tıxacın yaranma səbəblərini araşdırıb. Müşahidələrdən aydın olur ki, Bakı-Sumqayıt yolunda hər gün saatlarla davam edən tıxac Biləcəri enişindən başlayır (Bakıdan Sumqayıta getdikdə, xüsusilə axsan saat 18-21 arası). Burada maşınların sıxlaşmasının səbəblərindən biri də Biləcəri körpüsünü enən kimi yolun mühafizə zolağında, trasdan cəmi 6-7 metr kənarda "Rahat" marketin, ondan azca irəlidə isə "LUKoyl" yanacaqdoldurma məntəqəsinin olmasıdır.**

Həmin obyektlərə girib çıxan maşınlar yolda sürətin azalmasına və maşınların sıxlaşmasına səbəb olur. Digər səbəb elə həmin ərazidən başlayaraq yol kənarında inşa edilmiş villalardır. Sözügedən yol genişləndirilərkən həmin evləri köçürmək mümkün olmadı. Bu səbəbdən Biləcəri enişində 6-7 cərgədə gələn maşınlar Ekologiya postuna yaxınlaşanda, konkret olaraq piyada körpüsünün altında 3-4 cərgəyə sıxlaşmağa məcbur olurlar. Çünki orada villalar düz yolun kənarındadır və yolu genişləndirmək bu səbəbdən mümkün olmayıb. Maraqlıdır, dövlət əhəmiyyətli məsələ üçün həmin villalarda yaşayanları başqa yerlərə köçürmək olmazmı? Buna müvafiq qurumların gücü çatmırmı?

Əgər həmin villaları köçürmək mümkün olsa, həm ərazidə yol genişlənər, həm də Sulutəpə istiqamətində gedən sürücülər üçün yeni yol açıla bilər. Nəticədə Biləcəri enişindən sonra sıxlıq azalar. Hazırda Sulutəpə, Müşfiq qəsəbələrinə gedənlər məcburdur ki, Ekologiya postunun qarşısından sağa dönüş etsinlər. Əgər onların dönüş yeri irəliyə çəkilərsə, aşağıda ensizləşən yolda tıxac fəlakət həddinə çatmaz.

Amma məsələ bununla da tam yekunlaşmır. Müşahidələr göstərir ki, Bakı-Sumqayıt yolunda tıxac Ekologiya postunu keçəndən sonra da davam edir. Bunun da səbəbi odur ki, postdan sonra 4-5 cərgə gedən maşınlar qarşıda - Xırdalan dairəsi adlanan yerdəki yol qovşağında 3 cərgədə hərəkət etməyə məcburdurlar. Yalnız bir cərgə ilə Xırdalana və Binəqədiyə gedənlər üçün sağdan kənar yol yol, tunelin altından isə yalnız iki maşın Sumqayıt istiqamətində irəliləyə bilir. Nəticədə avtomatik olaraq tıxac yaranır. Və bu yolda tıxacın əsas səbəblərindən biri də elə Xırdalan dairəsindəki yol qovşağıdır. Burada da uyğun bir variantda yolu genişləndirmək mütləqdir. Bunlar olmayınca Bakı-Sumqayıt yolunda tıxac fəlakəti davam edəcək.

Səhərlər, pik saatlarda axşamlar da Sumqayıtdan Bakıya gələndə də eyni tıxac fəlakəti yaşanır; yenə də Biləcəri yaxınlığından başlayır, düz 20 Yanvaradək davam edir. Bunun da səbəbi avtovağzalın qarşısında yolun daralmasıdır. Burada da hansısa mümkün variantda yolu bir qədər genişləndirməklə problemi həll etmək olar.

❑ **M.MAHRIZLI**



## Sarayda qadın bələdiyyə sədrini öldürən şəxsin qardaşı da qətl törətdi

**Abşeron rayonunun Saray qəsəbəsində qətl hadisəsi baş verib. "Report"un yerli bürosunun məlumatına görə, 1963-cü il təvəllüdlü Saray qəsəbə sakini Muğan Əfqan oğlu Salikov öz həmyerlisi "Kürd Vüqar" ləqəbli şəxs tərəfindən qəsəbədəki "Qatar" restoranında vəhşicəsinə döyülüb və onunla gələn bir neçə nəfərin hücumuna məruz qalıb.**

Yaralı Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasının zədə məntəqəsinə çatdırılıb. Ancaq onun vəziyyəti ağır olduğundan Reanimasiya şöbəsinə yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, yaralı komaya düşdükdən sonra ayılmayıb. Onun meyiti morqa yerləşdirilib.

Muğan Salikovla "Kürd Vüqar" arasında əvvəllər də ədavətin olduğu bildirilir.

2015-ci ilin iyun ayında Abşeron rayonunun Saray qəsəbəsində yaşayan qəsəbə bələdiyyəsinin sədri, 1976-cı il təvəllüdü Vəsilə Əbdilhəsənova və onun həyat yoldaşı, 1976-cı il təvəllüdlü Vəfadar Əbdilhəsənov evlərində qətlə yetirilib. Onların boğazında və bədəninin bir neçə nahiyəsində bıçaq xəsarətləri olub. Hadisəni törətməkdə şübhəli sayılan 1980-cı il təvəllüdlü Fədail Güloğlan oğlu Hüseynov polisin keçirdiyi əməliyyat nəticəsində saxlanılıb. Eyni zamanda həmin vaxt hadisəni törətməkdə şübhəli bilinən "Kürd Vüqar" kimi tanınan Vüqar Hüseynov adlı şəxs də tutulub. O, bundan əvvəl tutulmuş 1980-ci il təvəllüdlü Fədail Gülоğlan oğlu Hüseynovun qardaşıdır. V.Hüseynov ifadəsinin alınması üçün Abşeron Rayon Prokurorluğuna aparılıb. Onun baş verən cinayətdə əlinin olub-olmaması araşdırılır. Fədail, Vüqar və Nuru Hüseynov qardaşları Abşeron rayon Saray qəsəbəsində ev və torpaq alqı-satqısı ilə məşğul olub və bələdiyyə sədri V.Əbilhəsənovanın yaxın adamları kimi tanınıb. Hadisə zamanı V.Əbilhəsənova və onun həyat yoldaşı qətlə yetirilləndən sonra evdən pul və heç bir qiymətli əşya oğurlanmayıb.

Faktla bağlı araşdırma aparılır.

bakcell

## "Bakcell" Azərbaycanda ilk dəfə metroda 4G xidmətini təqdim edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Bakı şəhərinin bütün metro stansiyalarında özünün ultra-sürətli 4G LTE mobil internet xidmətini istifadəyə verib.**

**4G şəbəkəsinin metroda qurulması yüksək həcmdə trafik mübadiləsi tələb edən film izləmək, selfi çəkib paylaşmaq kimi xidmətlərin istifadəsini dayandırmaq istəməyən sərnişinlərin çoxdan gözlədiyi hadisədir.**

**"Bakcell"in LTE şəbəkəsi hazırda Bakı metrosunun 21 stansiyasında (hazırda təmir olunan "Sahil" stansiyası istisna olmaqla) mövcuddur. «Bakcell» şirkətinin tətbiq etdiyi ən müasir "LTE Advanced" texnologiyası sayəsində, operatorun abunəçiləri artıq hətta metroda belə saniyədə 225 meqabitə çatan sürətin imkanlarından yararlana biləcəklər. Qeyd etmək lazımdır ki, bu xidmətin hazırda yalnız metro stansiyalarının platformalarında istifadəsi mümkündür.**

**"Biz metrodan tez-tez istifadə edən «Bakcell» abunəçilərinə çox yüksək keyfiyyətli 4G LTE xidmətini təqdim etməkdən böyük qürur hissi duyuruq. Abunəçilərimiz artıq platformalarda qatarı gözləyəndə belə bizim ultra-sürətli mobil internet şəbəkəmizdən yararlanmaq imkanı qazanıblar. Bu bizim üçün böyük nailiyyətdir və əminik ki, bu sahədə gördüyümüz işlər daim mobil olmaq və bütün məkanlarda genişzolaqlı internetə yüksək sürətli çıxış imkanı əldə etmək istəyən istifadəçilər tərəfindən yüksək qiymətləndiriləcək", deyə «Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**4G xidməti sayəsində «Bakcell» abunəçiləri şirkətin ən müasir LTE şəbəkəsindən faydalanaraq, iri həcmli faylları, demək olar ki, bir göz qırpımında yükləyib göndərmək, musiqi axınlarını buferizasiyanı gözləmədən dinləmək, habelə şəbəkədə ləngimənin cüzi olduğundan onlayn oyunlar oynamaq imkanına malikdirlər.**

**«Bakcell» şirkəti bundan sonra da öz abunəçilərini yeniliklər, ən son texnologiyalar və müasir, rahat və etibarlı xidmətləri ilə sevindirməyə davam edəcək.**

# İspaniyada "rus mafiyası" əməliyyatının pərdəarxası

## Ekspertlər hesab edirlər ki, baş verən proseslərin arxasında siyasi səbəblər dayanır...

**İspaniyada üç ay əvvəl həyata keçirilən əməliyyat zamanı həbs olunan "rus mafiyası"nın üzvlərinin işi güclü vəkillər komandasının hazırladığı taktika ilə dağıla bilər. Bu barədə virtualaz.org saytının hazırladığı materialda bildirilir. Qeyd olunur ki, söhbət on milyonlarla avro çirkli pulların yuyulmasında ittiham olunan, dağıdıcı silahlardan ibarət cəbbəxanaya malik mafiozların işindən gedir. Bunlar "İzmaylovsk" və "Solntsevsk" mütəşəkkil cinayətkar qruplaşmalarının üzvləri hesab edilən rusiyalı biznesmenlər və oliqarxlardır.**





Xəbər verilir ki, hazırda Malaqa əyalətinin Alhaurin-de-la-Torre şəhərindəki həbsxanasında İspaniya Mülki Qvardiyasının 2017-ci ilin sentyabrında keçirdiyi "Oliqarx" kod adlı əməliyyat zamanı həbs olunan 11 rusiyalıdan dördü şübhəli şəxs qismində saxlanılır.

Bunlar "Marbelya" futbol klubunun sahibi Aleksandr Qrinberq, Mixasdakı "Aguas Sierra de Mijas" su istehsalı zavodunun əsas səhmdarı Oleq Kuznetsov, həmin müəssisənin direktoru Serqey Dojdev və Rusiyada yaşayan, "Solntsevks" cinayətkar qruplaşmasının liderlərindən biri hesab edilən, Tamm soyadı ilə məşhur olan Arnold Arnoldoviç Spivakovskidir. Həmin Şpivakovski ki, uzun illərdir Rusiyanın maliyyə-investisiya nəhəngi "Sistem"in top-menecerlərindən biridir.

Məlumatda bildirilib ki, çirkli pulların yuyulması və digər cinayətlərdə iştirak edən mütəşəkkil qrupun fəaliyyətinə son qoyulub. Əməliyyat zamanı hər birinin dəyəri 300 min avro olan 28 avtomobil, külli miqdarda qiymətli əşyalar, yüz minlərlə avro pul, sənədlər götürülüb. Hüquq-mühafizə orqanları saxlanılanlara aid 67 malikanəyə və 100-dən çox bank hesablarına həbs qoyublar. Bundan başqa, 4 yaxta və 250 min avro nağd pul da müsadirə olunub.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Elxan Şahinoğlu bildirib ki, bu həbslərin arxasında siyasi səbəblər də ola bilər:**

"Çünki Rusiyanın Ukrayna siyasəti, Krımı işğal etməsi dünya düzəninə çox mənfi təsir etdi. Həmçinin bütün bunlar Rusiyanın beynəlxalq aləmdəki nüfuzuna da zərbə vurdu, Qərb ölkələri ilə münasibətləri pozuldu. Təxminən 10 ölkə saymaq olar ki, bu ölkənin rəsmiləri və jurnalistləri qeyd edirlər ki, Rusiya onların ölkələrindəki seçkilərə qarışır. Hansısa partiyanın qələbə çalması, digərinin isə məğlub olması üçün gizli yola baş vurub. Bunu onlarla ölkə deyir. Amerikadan tutmuş, Almaniya, hətta Böyük Britaniyaya qədər bu fikirdədirlər. Belə vəziyyətdə isə əlbəttə ki, münasibətlər normallaşmayıb, getdikcə gərginləşir. Son illərdə təkcə İspaniya deyil, dünyanın bir çox ölkələrində Rusiyanın imkanlı adamları həbs edilir və onlar silah satmaqda, maliyyə maxinasiyalarında günahkar bilinirlər. Məsələn, But adlı rus iş adamı vardı ki, o, Asiya ölkələrindən birinə silah daşıyırdı. Onu Asiya ölkələrindən biri həbs edərək, Amerikaya ekstradisiya etdi. İndi Rusiya deyir ki, guya But siyasi səbəblərlə tutulub. Halbuki Amerikanın belə bir istəyi yoxdur. Sırf olaraq kriminal məsələyə görə Butu həbs ediblər. Biz də bilirik ki, Rusiyanın xaricdəki maliyyə vasitələrinin çoxu kriminal mahiyyət daşıyır. Ona görə də rus kriminal aləminə qarşı Avropa ölkələrində zaman-zaman bu cür həbslər həyata keçirilir. Həbslərin indi olmasına gəlincə isə görünür, faktlar toplandıqca kütləvi həbslər həyata keçirilib. Düşünürəm ki, İspaniyadakı hadisələr də bu məsələnin tərkib hissəsidir. İspaniyanın özünə gəlincə isə onların Rusiya ilə münasibətləri gərginləşdirmək marağı yoxdur. Tam əksinə, İspaniya Avropa ölkələri içərisində Rusiya ilə münasibəti olan ölkələrdəndir. Kataloniyada "müstəqillik" elan ediləndə İspaniyanın mərkəzi hökuməti bunda Rusiyanın izini də gördü ki, orada müəyyən kəşfiyyat mərkəzləri hansısa təxribatlara baş vura bilərdilər. Bütövlükdə isə İspaniyanın Rusiyaya düşmən münasibəti üçün ciddi əsas yoxdur. Görünür, kriminal elementlər harınlayıblar ki, İspaniya bu cür əməliyyata məcbur qalıb".

**Politoloq Tofiq Abbasov isə fərqli fikirdədir. O, "Yeni Müsavat"a bildirib ki, biz adətən geosiyasi, iqtisadi baxımdan hər zaman qloballaşmanı diqqətdə saxlayırıq:**

"Ancaq qloballaşma həqiqətən də həyatın bütün sahələrinə, o cümlədən də "qara iqtisadiyyat"la məşğul olanlara, mafiya qruplarına sirayət edir. Çünki indi dünyada qeyri-qanuni pul dövriyyəsi ilə də bağlı mübarizə sərtləşib, yeni məhdudiyyətlər qoyulur. Bunlar pul köçürmələri, biznes sahəsində olan əməliyyatlardır ki, onlar adətən ikibaşlı idi. Görünən və görünməyən tərəfləri vardı. Söhbət "kölgə iqtisadiyyatı"ndan gedir. Ümumiyyətlə, bu sahələrə qatılanlar adətən qanun çərçivəsindən kənara çıxırlar. "Rusiya mafiyası"nın da adı əsasən Qərbdə çox hallanır. Çünki onun toxunduğu sahələr kifayət qədər çoxdur. Digər tərəfdən isə Qərb təchizatları bütün dünyaya qanun çərçivəsində qalmaq lazım olması, şəffaflıqla bağlı fikirlər yayırlar. Buna baxmayaraq, həmin o mərkəzlərin özündə də elə boşluqlar var ki, "rus mafiyası" onlardan istifadə edir. Yəni özbaşına hansısa ölkədə məskən salıb, onun ətrafında qeyri-qanuni fəaliyyət növü ilə məşğul olmaq mümkünsüzdür. Adətən bu cür xoşagəlməz hadisələr, mafiya qruplarının əl-ayaq açdıqları yerlərdə hər zaman yerli dairələrlə əlaqələr yaranır. İspaniyada da ehtimal ki, bu, belədir. Ona görə də İspaniyada əgər "rus mafiyası" geniş fəaliyyət sahəsini mənimsəyibsə, bu, özbaşına ola bilməz. İspaniyanın ağır dövrü oldu. Rəsmi Madrid Brüsseldən xahiş etdi ki, onların iqtisadi vəziyyətlərini xilas etsinlər, onlara maliyyə yardımı göstərsinlər. Həmin ərəfədə İspaniyanın daxilində xaricdən gələn bir çox vətəndaşlar, iş adamları külli miqdarda həm daşınmaz əmlaka yiyələndilər, həm də İspaniya iqtisadiyyatına yatırımlar etdilər. Əlbəttə ki, onlar arasında "rus mafiyası"nın da nümayəndələri var idi. Çünki onlar bir ucdan Rusiyadan pulları çıxarıb, maliyyə resurslarını Qərbə doğru aparırdılar. Nəticədə isə özləri üçün əlverişli imkanlar olan yer tapırdılar. İspaniya isə bu baxımdan onlar üçün ideal məkan idi. Sonradan İspaniya yavaş-yavaş özünə gəldikcə həmin qeyri-qanuni sektorda baş verən əməliyyatların izinə düşürdü. İndi də faktiki olaraq "Rusiya mafiyası"nın üzvləri ilə mübarizə aparırlar. ABŞ-ın tədqiqat aparan orqanları Rusiya elitasının həmin o "Rusiya mafiyası" deyilən strukturla əlaqələrini diqqətlə izləyirlər. Müəyyən etməyə çalışırlar ki, maliyyə dalğaları haradan-haraya gedir. Bu proseslərdə kimin iştirakını da araşdırırlar. Ona görə də İspaniya həm Avropa İttifaqının üzvü, həm də Amerikanın müttəfiq dövləti kimi bir çox hallarda xarici qüvvələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edir ki, kölgə sturukturlarının fəaliyyətini ifşa etsinlər, qeyri-qanuni əməliyyatları üzə çıxarsınlar. Bu baxımdan da "Rusiya mafiyası"nın adı çıxıb, onların izinə düşüblər".

**Əli RAİS,**
**"Yeni Müsavat"**

## Şəmkir sakini bazarın yaxınlığında güllələndi

**Şəmkirdə silahlı insident olub. APA-nın qərb bürosunun xəbərinə görə, hadisə dünən günorta saatlarında Şəmkir şəhərində bazarın yaxınlığında baş verib. Küçədə bir nəfərin odlu silahdan açdığı atəş nəticəsində Şəmkir sakini, 1992-ci il təvəllüdlü Mircəlal Mehdiyev xəsarət alıb.**

Güllə yarası alan M. Mehdiyev Şəmkir Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 12 (6901) 18 yanvar 2018

**Əvvəllər nəyisə satın almaq üçün müxtəlif mağazalar gəzirdiksə, indi buna ehtiyac yoxdur. Çünki internet elanları vasitəsilə axtardığımız hər şeyi, ev, maşın, əşya, geyim və sairə satın ala, hətta evimizə qədər gətirmələrinə nail ola bilərik. Texnologiya inkişaf etdikcə bu kimi elan saytlarının da sayı artdı.**

# İnsanları şoka salan qeyri-adi satışlar...

## Elan saytlarında kimi ərini, kimi isə ruhunu satır

Artıq indi internetdə yerləşdirilən elanlarda nəinki geyim və əşya, hətta qeyri-adi satışlara da rast gəlmək mümkündür. Kimi uşağını, kimi ərini, kimi anasını, kimi ruhunu, uşağına ad qoyma haqqını, kimisi isə məşhurla nahar yeməyi haqqı satır. eBay hərracında material əşyaların satışı ilə yanaşı, mənəvi "dəyərlərin" satışına da rast gəlmək mümkündür. Məsələn, Uorren Baffet ilə nahar yeməyi kimi. Məşhur amerikalı milyarder Uorren Baffetlə nahar eBay internet-hərrac üzərindən 2,34 milyon dollara satılıb. 2010-cu ildə anonim saxlanılan bir insan 2,6 milyon dollar ödəyərək Uoren Baffet ilə nahar etmək imkanı qazanıb.

Digər qeyri-adi bir satış isə Türkiyədə baş verib. Belə ki, ikinci əl deyilən və işlənmiş əşyalar satılan bir elan saytında Busə adlı qadın yeddi il evli olduğu həyat yoldaşını satışa çıxarıb. O, ərinin onunla ilk gündəki kimi maraqlanmadığını və bu durumdan narahat olduğu üçün onu satışa çıxardığını bildirib. Busə 276 TL-yə satışa çıxardığı həyat yoldaşı haqda elanda bu cümlələri yazıb: **"7 ildir evli olduğum həyat yoldaşımı artıq tanıya bilmirəm. Çöldə baxımlı olmasına baxmayaraq evdə baxımsız və ilgisiz gəzir. İşi-gücü olsa da, mənim heç bir ehtiyacımı ödəmir. Bazarlıq pulundan başqa mənə 5 qəpik də pul vermir. İstədiyim heç nəyi ala bilmirəm. Ona görə də bu adamla eyni evdə yaşamaq istəmirəm. Ərimi laqeydliyinə, həm də pulsuz olduğuma görə satışa çıxarıram. Mən bir xeyrini görmədim, alan görsün".**

Türkiyədə insanları heyrətləndirən daha bir satış isə Antalyada baş verib. Burada yaşayan bir şəxs "uyğun qiymətə ruhumu satıram" adı ilə internetdə elan yerləşdirib. 100 TL-dən satışa çıxardığı ruhunu 6 gün keçməsinə baxmayaraq, alan olmayıb. Gənc elanda bu cümlələri yazıb: **"Dostlar, uzun zamandır ki, ruhumla yola gedə bilmirəm. O, başqa birinə aid olmaq istəyir. Ona görə də satmağa qərar verdim. Ruhum uyumlu, doğru istiqamət verə bilən, yalanı olmayan bir ruhdur. Ruhumu bankada satıram. Ruhum geri dönməyəcək, buna zəmanət verirəm, əgər dönsə onu geri qaytaracam".**

Qeyd edək ki, Azərbaycanda ana müqəddəs hesab edildiyi üçün onun haqqında kiminsə nəsə mənfi fikir bildirməsinə belə dözümsüz yanaşırıq. Ancaq Azərbaycandan fərqli olaraq elan saytlarında anasını və onun fikirlərini satanlara da rast gəlinib. Belə ki "dünyanın ən yaxşı anası və onun düşüncələri" adı ilə hərrac səhifəsində Don Baber adlı biri anasının mükəmməl olduğunu və ən yüksək məbləğ verənə bir gün boyunca anasının emaillər yazaraq analıqla bağlı düşüncələrini bölüşəcəyini, mükəmməl bir övladı necə yetişmək olar istiqamətinə dair ip ucları verəcəyini bildirib. Baberin anası isə oğlunun onun haqqında yazdığı sözlərdən duyğulandığını deyib. Bir dollardan başlayan məbləğ artaraq 345 dollara qədər yüksəlib. Elan üçün məbləğ artıranların bir qismi Baberin anasına çox xoş bir jest etdiyini desə də, bir qisim anasının düşüncəsini satdığı üçün onu qınayıb.


təcili Elanı təcili et

Elan № 76670 Tarix: 25.12.2017 Baxış sayı:27

| | |
|---|---|
| Kateqoriya | Satilir |
| Qiymət | 10 000 azn |
| Elan bölməsi | Digər / müxtəlif » Digər |
| Şəhər/ərazi | Bakı, Xəzər r, Binə |

**Elanın təsviri:**
Körpe oğlan usagidi sağlamadı baza bilmirem ovladi olmayanlara verirem razilasma yolu ile

Ana ilə bağlı buna bənzər digər hadisə isə Kanada da baş verib. Xərcliyini az verdiyi üçün anasına əsəbiləşən 17 yaşlı Steve Duck adlı şəxs eBay satış səhifəsində anasını satışa çıxarıb. Anası 10 dollardan satışa çıxaran Duckun anası bunu biləndə qəzəblənib. eBay səlahiyyətliləri isə satışa icazə verməyəcəklərini deyərək, elanı səhifədən yığışdırıblar.

Ötən il isə Amerikada yaşayan 19 yaşlı Jizel adlı tələbə qız "Escorts Cinderella" saytında öz bakirəliyini hərraca çıxarıb. Qızın bakirəliyini Əbu-Dabidən olan adı gizli saxlanılan biznesmen 3 milyon dollara alıb. Tələbə qız aldığı pulu təhsil almaq və səyahət etmək üçün xərcləyəcəyini deyib.

Qeyd edək ki, Azərbaycanda bu cür qeyri-adi satışlara demək olar ki, rast gəlinmir. Bu cür elanlara çox az hallarda rast gəlindiyində isə bu, ictimaiyyət tərəfindən qınanılır və müvafiq orqanlar tərəfindən qarşısı alınır. Hər kəsə məlumdur ki, bu yaxınlarda elan saytlarının birində ata 40 günlük övladını 10 min manata satışa çıxarmışdı. O, övladına baxa bilmədiyi üçün bu addımı atdığını desə də, bu inandırıcı deyildi. Çünki övladına baxa bilməyən biri onu satmaq yerinə uşaq evinə yerləşdirə bilərdi. İctimaiyyət və hüquq-mühafizə orqanlarının reaksiyasından qorxan şəxs elanı sildirərək qaçmışdı.

❑ **Günel MANAFLI,**
**"Yeni Müsavat"**

# Bakıda sürüşmə zonaları yenidən aktivləşib

## ETSN rəsmisi **Əziz Qaralov:** "Sürüşmənin olduğu yerlərdə dinamika artıb, aktivləşmə müşahidə olunur"

**Qış aylarında, yağışlardan sonra Bakıda sürüşmə zonaları yenidən aktivləşir. Coğrafiya İnstitutunun mütəxəssislərinin apardıqları tədqiqatlara əsasən Bakının bir neçə əsas sürüşmə ocaqları müəyyənləşib.**

Əhmədli şosesi, Zığ şosesi, Binəqədi, Bayıl, Badamdar, Masazır gölünün ətrafında - ümumilikdə təxminən 20 yerdə böyük sürüşmə sahəsi var. Həmin sürüşmə sahələrində 150 mindən çox əhali məskunlaşıb. Bu ərazilərdə sürüşmə sahələri geniş yayılıb və həmin ərazilər sürüşmə baxımından təhlükəli hesab edilir. Mütəxəssislərin sözlərinə görə, son 20-25 ildə Bayıl yamacında sürüşmə sahəsi daha da artıb.

Sürüşməyə təbii amillərlə yanaşı su, kanalizasiya borularının köhnəlməsi və həmin ərazilərdə çoxsaylı iritonnajlı maşınların hərəkəti səbəb olur.

Masazır ərazisində sürüşmə zonalarında tez-tez aktivləşmə müşahidə olunur. Ötən il sürüşmə zonasında uçan evlər barəsində material hazırlamışdıq. Bu il isə daha çox Gəncə prospekti, Yeni Günəşli ərazisində sürüşmənin aktivləşməsi bildirilir. Məsələ ilə bağlı açıqlama verən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov bildirib ki, Bakının Suraxanı rayonunun Yeni Günəşli yaşayış massivindəki "Günəşli Yaylası" çökmə-oturma sahəsi və Zığ sürüşmə sahəsindəki çatlarda müəyyən qədər artım var.

"Yeni Müsavat"ın əməkdaşı olaraq Gəncə prospektində sürüşmə zonasında olub, oradakı ümumi vəziyyətlə maraqlanıb. Öncə qeyd edək ki, 2012-ci ildə bu ərazidə ciddi sürüşmə baş verməmişdi. Sürüşmə nəticəsində 65 və 63 saylı yaşayış binaları da uçma təhlükəsi ilə üz-üzə idilər. Binaların yaxınlığında torpaq qabarmaları açıq şəkildə müşahidə olunurdu. Həmin ərəfədə binaların sakinləri narahatlıqlarını bildirib, evlərində qorxudan rahat yata bilmədiklərini söyləyirdilər.





Daha sonra müvafiq qurumların işə qarışması ilə ərazidə ağaclar əkildi, sürüşməyə qarşı müəyyən addımlar atıldı. Yenidən həmin ərazidə olduğumuz zaman müşahidə etdik ki, sürüşmə ərəfəsində çəkilən yollarda çökmələr yaranıb. Yolun bəzi hissəsi uçaraq, torpağa qarışıb. Ərazidə xeyli sayda ağacın əkilməsi isə torpağın təpədən aşağı sürüşməsinin qarşısını müəyyən qədər alıb. Sürüşmə ərazisində hündürmərtəbəli binalar da tikilib ki, bu da əslində qanunla yolverilməzdir.

Söhbət etdiyimiz 65 saylı binanın sakinləri bildirdilər ki, hazırda ciddi torpaq sürüşməsi müşahidə edilmir. Ağaclar əkildikdən sonra torpağın aşağıya doğru sürüşməsinin qarşısı alınıb. Lakin buna baxmayaraq yenə də təhlükə var.

Müşahidə etdik ki, yuxarı qalxmaq üçün sürüşmə ərazisində tikilən pilləkənlərdə də müəyyən çökmələr var.

Onu da qeyd edək ki, ərazidə hələ 1990-cı illərdə sürüşmə baş verib. Belə ki, sakinlərin sözlərinə görə, orada ən güclü sürüşmə 1989-cu ildə baş verib və həmin vaxt sürüşmə o qədər böyük olub ki, Gəncə prospekti 53 saylı binanın birinci mərtəbəsindəki evlər də torpaq qatı ilə örtülüb. Bunu bildikləri halda isə orada binalar ucaldıb, xeyli sayda şəxsi evlər tikiblər...

Bundan başqa, hazırda Bakıda Televiziya Qülləsinin ətrafında torpaq qatı da sürüşmə baxımından olduqca təhlükəli hesab edilir. Elə ötən ilin dekabr ayında Bakı Televiziya Qülləsinin cənub-şərq istiqamətində, teleqüllədən 250-300 metr məsafədə sürüşməyə qarşı inşa edilmiş istinad divarları deformasiyaya məruz qalmışdı.

**"Yeni Müsavat"a danışan ETSN-in Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov bildirib ki, hazırda Bakıda bütün sürüşmə zonalarında aktivlik müşahidə olunur:**

"Həm Bayıl ərazisi, Zığ ərazisi, həmçinin də Gəncə prospekti qədim sürüşmə əraziləridir. Mövsümlə əlaqədar olaraq yağıntılar çox yağdığı üçün torpaq doyur, ağırlaşır. Nəticədə isə sürüşmənin olduğu yerlərdə dinamika artır, aktivləşmə müşahidə olunur. İndi də vəziyyət bu cürdür. Günəşli yaylasında olduq və müşahidə etdik ki, tektonik qırılma boyunca olan evlərdə çatlar var. Bu cür çatlar əvvəllər də var idi. Lakin indi bir qədər də genişlənib və nisbətən gözlə görüləcək qədər artıb. Orada ev tikilməsi qadağan olsa da artıq ərazidə evlər tikilib. Massiv tamamilə yüklənib".







❑ **Əli RAİS,**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 12 (6901) 18 yanvar 2018



## 1.3 milyon dollarlıq araq butulkasını oğurladı və içmədi...

**Dünyadakı ən bahalı araq oğrusu onu içməyib. Bunu arağın saxlandığı Kopenhagendəki "Cafe 33"ün sahibi Brian İnqberq deyib. "Russo Balt" arağının bir butulkası 1.3 milyon dollar dəyərindədir və o, 2 yanvarda itib. Baş vermiş oğurluqda əsas şübhəli isə kafenin dublikat açarlara sahib olan keçmiş əməkdaşıdır. 3 gün sonra isə araq butulkası Kopenhagendən 20 kilometr aralıda, tikinti meydançasında tapılıb. Polis butulkanı tapanda onun içi dolu olub. Onu içməmişdilər və çox güman ki, oğru mətbuatda çıxan səs-küydən ehtiyatlandığı üçün ondan qurtulmaq istəmişdi.**

Oğurlanan araq butulkası İnqberqin kolleksiyasındakı ən bahalı nümunə idi. O, bu arağı Latviyanın Dartz Motor Company firmasından almışdı və 6 ay boyunca barında nadir eksponat kimi saxlayırdı. Eksponatın dəyəri onunla ölçülür ki, butulka qızıl və gümüşdən hazırlanıb, üzəri brilyantla bəzədilib. Kolleksiyaçının sözlərinə görə, özü nə vaxtsa bu arağı içməyi planlaşdırır və daha sonra içini yenidən dolduracaq: "Çox güman ki, içinə dolduracağım araq Rusiya istehsalı olacaq. Amma hələlik Rusiyaya getməyə hazırlaşmıram".

**İnqberq deyib ki, araq kolleksiyası toplamağa 20-25 il əvvəl başlayıb:** "Əvvəl ona görə başladım ki, həqiqətən də çoxlu qəşəng butulkalar var. Daha sonra özümçün yeni araq dadları kəşf etməyə başladım. Hazırda mənim kolleksiyamda dünyanın müxtəlif yerlərindən 1200 butulka araq var".

# Piyə bənzər heykəl londonluları arıqlamağa məcbur edəcək

**Londonda iri piyə bənzər heykəl ucaldıblar. Bunda məqsəd insanları artıq çəki ilə bağlı düşünməyə vadar etmək olub. Lenta.ru saytı "The Independent"ə istinadən xəbər verir ki, iri piyə bənzər heykəl gerçək qarın yağından hazırlanıb. Onun hündürlüyü ikimərtəbəli avtobusa bərabərdir, eni isə 3 metrdir. Yaradıcıları düşünür ki, iri və qeyri-estetik görüntüsü olan art-obyekt insanları sonuncu bayram günlərində yedikləri çoxlu yemək və artıq çəkilər barədə düşündürəcək. Bunun hazırlanması yeni araşdırmaların çıxması ərəfəsinə təsadüf edib. Araşdırma zamanı 2 minə yaxın insan etiraf edib ki, qış tətili zamanı orta hesabla 2 kilo çəkiləri artıb. Bundan başqa, alimlər müəyyən ediblər ki, yanvar ayından etibarən sağlam həyat tərzinə keçəcəyini vəd edən şəxslər artıq bu ideyalarından vaz keçiblər və cəhdlərini dayandırıblar. Bu heykəli görəndən sonra yenidən sağlam həyat tərzinə qayıtmaq istəyənlərin sayında artım olacaq.**



# İngiltərədə Yalnızlıq Nazirliyi yaradıldı



**İngiltərə siqaret çəkmək qədər zərərli hesab etdiyi "yalnızlıq" mövzusuna da əncam çəkib. 2016-cı ildə sağyönümlü bir nəfər tərəfindən öldürülən İşçi Partiyasının deputatı Jo Cox tərəfindən ortaya qoyulan "Yalnızlıq Nazirliyi" fikri həyata keçirildi. İngiltərədə baş nazirlik ofisindən verilən açıqlamada yalnızlıqdan məsul bir nazirliyin qurulduğu açıqlanıb. Baş nazir Theresa May mövzu ilə bağlı verdiyi açıqlamada "Jo Cox, ölkədəki yalnızlığın nə səviyyədə olduğunu anlayıb və özünü bu durumdan əziyyət çəkənlərə həsr etmişdi" deyib. Mühafizəkar Partiyadan deputat olan Treysi Kroxun tənhalıq naziri təyin ediləcəyi deyilib.**

Krox isə yerli mediaya açıqlamasında bildirib: "Bu mövzu Jonun həvəslə maraqlandığı bir məsələ idi. Biz də onun xatirəsinə sahib çıxmaq və İngiltərədə yalnızlığa görə acı çəkən milyonlarla insana yardım etmək üçün əlimizdən gələni edəcəyik".

Eyni zamanda Beynəlxalq Statistika Ofisinin də yalnızlığın doğru hesablanması üçün bir üsul yaradacağı bildirilib.

Statistika isə göstərir ki, yeni qurulan nazirlik İngiltərə üçün olduqca önəmlidir. Yalnızlığın İngiltərədə 9 milyon nəfərə təsir etdiyi ortaya çıxıb. 2017-ci ildə yayımlanan bir hesabat yalnızlığın gündə 15 ədəd siqaret çəkmək qədər pis olduğunu sübuta yetirib. İngiltərədə beynəlxalq səhiyyə sistemindən məsul olan professor Ceyn Cummings soyuq hava və yalnızlığın qış aylarında öldürücü ola biləcəyini deyir. 75 yaşından yuxarı 2 milyona yaxın insanın yarısı isə yalnız yaşayır. Çoxu günlərlə, bəzən həftələrlə heç bir sosial təmas qurmadan yaşayırlar.

## Qoroskop (18 yanvar)




**QOÇ** - Ətrafınızda cərəyan edən proseslər nə qədər əleyhinizə işləsə də, dözümlü olmalısınız. Əks təqdirdə, uğurlardan uzaq düşəcəksiniz. Mənzil şəraitində daha çox olun.

**BUĞA** - Kosmik fonun aktivliyini nəzərə alan ulduzlar bütün diqqəti fəaliyyətə ayırmağı tövsiyə edir. Əgər bunu bacarsanız, yanvarın son ongünlüyündə ciddi problemlərlə rastlaşmayacaqsınız.

**ƏKİZLƏR** - Həyat təcrübəsi zəif olan adamlardan uzaq olun. İndiki məqamda belə hallar sizə yalnız zərər yetirə bilər. Amma bilik və təcrübəsi bol olan şəxslərdən bərk-bərk yapışın.

**XƏRÇƏNG** - Əgər səhhətiniz imkan versə, müqəddəs yerləri ziyarət etməklə hazırkı enerji azlığınızı aradan qaldıra bilərsiniz. Maraqlı insanlarla rastlaşma ehtimalınız da var.

**ŞİR** - İştirakçısı olduğunuz proseslər olduqca ciddi bir mərhələyə yetişib. Belə məqamlarda ehtiyatlı və tədbirli davranmalısınız ki, gözdən düşməyəsiniz. Uzaq yola çıxmaq da olar.

**QIZ** - Ətrafınızı bürüyən bədxah insanlar sizi imansız yola təhrik edə bilərlər. Özünüzü təsirdən qoruyun. Hansısa dedi-qodu və ya şər neçə illik xoş münasibətlərə kölgə salmamalıdır.

**TƏRƏZİ** - Mistik düşüncələrə qapılmaqdansa, Tanrını başınız üstündə hiss edib düzgün qərarlar verin. Yalnız bu halda irəliləyişlər mümkündür. Qarşınızda müəyyən yeniliklər də durur.

**ƏQRƏB** - Sizə mənəvi dəstək verə biləcək insanlarla rastlaşma ehtimalınız var. Çalışın ki, bu görüşlər boşuna getməsin. Daxili narahatlığınızı dəf etmək üçün bunun böyük səmərəsi ola bilər.

**OXATAN** - Nahara qədər qeyri-adi hansısa hadisə gözləməkdənsə, darıxdığınız adamlarla görüşməyə cəhd edin. Pul və işlə bağlı planlarınızı isə günortadan sonraya saxlayın.

**OĞLAQ** - Pul kisəsinin qənaətbəxş olmaması ləyaqət və mənliyinizə kölgə salmamalıdır. Çünki həyatın enişi-yoxuşu həmişə olur. Odur ki, iman işığına söykənib mərhəmətli olun.

**SUTÖKƏN** - Çıxardığınız hər bir qərarı dəfələrlə götür-qoy edin. Yanlışlığa yol verməyin. İlk növbədə nüfuzunuzu qoruyun. Astroloji göstəricilər yeni ideyalara yiyələnəcəyinizdən xəbər verir.

**BALIQLAR** - Həssas və çılğın olmağınızdan istifadə edən bəzi bədxahlar sizə tələ qura bilər. Bu səbəbdən də özünüzü dağ kimi təmkinli aparın. Əmin olun ki, bunun bəhrəsini görəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bunlar insan psixikasının düşmənidir



**Tez-tez ət və şokolad yemək insan psixikasını məhv edir və uzun sürən depressiyaya səbəb olur. Bu qəribə nəticəyə amerikan tədqiqatçıları gəliblər. Alimlər 10 il ərzində 15 min könüllünün analizini toplayaraq onların psixi durumunu və qida rasionunu dəyərləndiriblər. Tədqiqatların yekununa əsasən müəyyən edilib ki, şirni, xüsusilə şokolad və yağlı ət həvəskarları əsəb sisteminin pozulmasından daha çox əziyyət çəkirlər. Onlar sakitləşmək və normal hala düşmək üçün daha çox sedativ preparatlar qəbul edirlər.**

Alimlər depressiyanın inkişaf riskini azaltmaq üçün şirnisevənlərə və "ət yeyənlərə" bir müddət ət və şokoladdan uzaq olmağı, yaxud heç olmasa pəhriz günləri keçirməyi məsləhət görürlər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100